32_27 IYUl-QARA.qxd 9/12/2024 10:50 PM Page 1


# Unikal

№33 (2215) 13 sentyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru


# Region gücləri "Zəngəzur dəhlizi"ndə üz-üzə gəlir: Azərbaycan isə mövqeyində israrlıdır




Səh.9



## MSK 20 müraciəti araşdırır

*Mərkəzi Seçki Komissiyasının araşdırmasında 20 müraciət var. "Unikal"ın məlumatına görə, bunu MSK-nın sədri Məzahir Pənahov Komissiyanın iclasında deyib. O qeyd edib ki, indiyə qədər olan müraciətlər dairələrin səlahiyyətində olan müraciətlər idi. M.Pənahov vurğulayıb ki, daxil olan müraciətlərin hamısına baxılacaq. 42 saylı Sumqayıt Birinci Seçki Dairəsindən namizədlər - Mayılova Şəfəq və Quliyeva Ulduz İsmixan qızının birgə müraciəti daxil olub. Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında MSK üzvü Nailə Əsgərova məlumat verib. O bildirib ki, onların müraciəti qanunvericiliklə müəyyən edilmiş vaxtı keçib: "Buna görə də şikayətçiyə...*

Səh.2

## "Azərbaycanın sülh müqaviləsi ilə bağlı şərti bəllidir"



*Siyasi şərhçi Fərhad Məmmədov "Unikal"a müsahibə verib. O, son günlər Zəngəzur dəhlizi ilə bağlı İran-Rusiya arasında səsləndirilən fikirlərdən, bu dəhlizin nə zaman açıla biləcəyindən, Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Naxçıvan istiqamətində mövqelərimizin atəşə...*

Səh.4

## Rəsmi Bakıdan Fransanın bəyanatına cavab



*Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Fransa vətəndaşı Teo Klerkə qarşı guya "ayrıseçkilik" edilərək onun barəsində məhkəmə tərəfindən "haqsız qərar verilməsi" barədə bəyanatı, bununla, özünü "hüquqi dövlət" adlandıran Fransanın Azərbaycanın məhkəmə prosedurlarını heçə sayması qəbuledilməzdir. Fransa tərəfindən səsləndirilən iradların heç bir əsası yoxdur.*

Səh.2

## Məhkəmə Əli Kərimliyə qarşı şikayəti icraata götürdü



*Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimliyə qarşı xüsusi ittiham qaydasında verilən şikayət üzrə məhkəmə prosesi keçirilib. "Unikal" xəbər verir ki, bu gün Nəsimi rayon Məhkəməsində hakim Babək Pənahovun sədrliyi ilə keçirilən hazırlıq iclasında xüsusi ittiham qaydasında verilən...*

Səh.8

32_27 IYUI-QARA.qxd 9/12/2024 10:52 PM Page 2



# Aygün Kazımovanın milyonları...



***Xalq artisti Aygün Kazımova son bir neçə ildir görünüşü, oxuduğu mahnıları, verdiyi konsertləri və çəkdirdiyi klipləri ilə gündəmdən düşmür.***

Axşam.az xəbər verir ki, Pop kraliçanın oxuduğu mahnıların hər biri hitə çevrilir. "Parol", "Bilmək olmaz", "Vəfasızlar", "Sağsalamat" aylardır dillər əzbəridir.

Kazımovanın sonuncu dəfə təqdim etdiyi "S.O.S" isə balacadan böyüyə hər kəsin dilindədir. Getdiyimiz hər restoranda, istirahət mərkəzində, gözəllik salonunda, küçədə, bir sözlə hər yerdə "S.O.S" səsləndirilir.

Aygün son bir neçə ildir oxuduğu mahnılarla yutubda milyonlarla baxış toplamağı bacarıb. Pop kraliçanın ifaları bir çox dijital platformalarda birinci sıradan qərarlaşmağı bacarıb.

Divanın "Qorxuram" adlı mahnısı yutubda 18 milyon baxış sayı toplayıb. "Qorxuram"dan cəmi 1 ay sonra təqdim edilən "Vəfasızlar unudulmur" mahnısı isə qısa zamanda milyonu keçib. Hazırda isə 12 milyondan çox baxış sayı var.

A.Kazımovanın ötən ilin sentyabrında dinləyicilərinin ixtiyarına verdiyi "Parol" mahnısı da hitə çevrilib və 20 milyon baxışı keçib. "Bilmək olmaz" hiti də yutubda 14 milyondan çox izlənilib.

Klipi Türkiyədə çəkilən və yanvarda təqdim olunan "Sağ-salamat" 7,1 milyon dəfə izlənilib.

Pop kraliçanın sonuncu "S.O.S" hiti isə 2 ay içərisində 18 milyondan çox baxılıb.

# Kərimdən fonoqram oxuduğu üçün döyülməsinə reaksiya



***Xəbər verdiyimiz kimi, müğənni Kərim Abasov məclislərin birində fonoqramla ifa etdiyi üçün döyülüb.***

Hadisə bir neçə gün əvvəl baş verib. Məsələ ilə bağlı ifaçı heç bir açıqlama verməyib. Bu gün isə Kərim fonoqram oxuması iddialarına cavab olaraq video yayımlayıb. Görüntüdə Kərimin canlı oxuması əks olunub.

Qeyd edək ki, DİN-in Mətbuat Xidməti məsələ ilə bağlı açıqlama verib. Bildirilib ki, sentyabrın 10-da axşam saatlarında paytaxtın Nizami rayonu ərazisində yerləşən şadlıq saraylarından birində baş vermiş insidentlə bağlı qarşılıqlı şikayətlər əsasında ərazi polis orqanında təhqiqat araşdırması başlanılıb. Tərəflərin ərizə və izahatları alınıb. Xəsarətlərin dərəcəsini müəyyən etmək məqsədilə müvafiq ekspertiza təyin olunub.



# Roza Zərgərlinin geyimi müzakirə yaratdı

***Roza Zərgərli Gürcüstanda konsert verəcək.***

"Unikal" yenisabah.az-a istinadən xəbər verir ki, bu barədə ifaçı sosial şəbəkə hesabında məlumat yayıb.

Müğənni sentyabrın 20-də Gürcüstanın Marneuli şəhərində "Marneuloba 2024" festivalında izləyicilərin qarşısına çıxacaq.

Müğənninin konsert barədə məlumat verdiyi görüntülər isə birmənalı qarşılanmayıb. Bəziləri onun açıq-saçıq geyiminə irad tutub, bu cür geyimlərin ona yaraşmadığını qeyd ediblər.

# "Niyə 20 manat cərimə olunmalıyam?" - Xuraman Şuşalı



***Müğənni Xuraman Şuşalının başına iş gəlib.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, sənətçi şəhərin mərkəzi küçələrindən birində avtodayanacağa nəzarət edən şəxsin onu aldatdığını deyib. Xuraman bildirib ki, buna görə ona 20 manat cərimə yazılıb: "Maşını saxlamışam, nəzarətçi yaxınlaşıb, deyirəm ki, kod vurmalıyam. Dedi ki, heç nə lazım deyil, ödənişi mənə ver. Pulu verdim və getdim. 15-20 dəqiqədən sonra mənə cərimə gəldi. Bununla hansısa orqan məşğul olmalıdır, bilməliyik kimə inanaq. Niyə yalançılıq edirsiniz? Yaxınlaş dənən 2 manat ver, verim. Amma niyə 20 manat cərimə olunmalıyam? Nizami Kinoteatrının yanında bir tədbir görülsün. Dayanacağa nəzarət edənlər bizi aldatmasın. Pulu halal etmirəmsə, onu yeyə biləcəksən?".

Xuraman daha sonra taksilərdən şikayət edib: "Son vaxtlar taksi sifariş edirsən, göstərir 10 dəqiqəyə gəlirəm. Gələnə yaxın geri çevirir və yaxın sifariş götürülür. Taksi şirkətləri bir tədbir görsünlər. Yarım saat taksi gözləmişəm, ya çalışın, ya yox. Maşın sürürük cərimə yazılır. Şəhərdə tərpənmək puldur".

# Qalmaqala səbəb olan Türkiyə gözəli



***"Miss Turkey 2024" gözəllik müsabiqəsi İstanbulun Haliç qəsəbəsindəki hoteldə keçirilib. 20 finalçının mübarizə apardığı yarışmada İdil Bilgen "Türkiyənin ən gözəl qızı" seçilib.***

"Unikal" xəbər verir ki, gözəllik kraliçası seçilən İdil Bilgenin görünüşü sosial mediada diqqət çəkən mövzulardan olub. Bir çox izləyici onun gözəllik standartlarına sahib olmadığını bildirib.

"Miss Turkey 2024" müsabiqəsinin qalibi olan 24 yaşlı İdil Koç Universiteti Tibb Fakültəsinin məzunudur.

32_27 IYUl-QARA.qxd 9/12/2024 10:56 PM Page 3



# Məhkəmə Əli Kərimliyə qarşı şikayəti icraata götürdü



***Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimliyə qarşı xüsusi ittiham qaydasında verilən şikayət üzrə məhkəmə prosesi keçirilib.***

"Unikal" xəbər verir ki, bu gün Nəsimi rayon Məhkəməsində hakim Babək Pənahovun sədrliyi ilə keçirilən hazırlıq iclasında xüsusi ittiham qaydasında verilən şikayətin icraata götürülməsinə qərar verilib.

Proses sentyabrın 19-da davam etdiriləcək.

Qeyd edək ki, partiyanın sabiq Nəzarət Təftiş Komissiyasının sədri olmuş, daha sonra partiya sıralarından xaric edilən Əliyev Aydın Sədədqulu oğlu Əli Kərimlinin Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə məsuliyyətə cəlb edilməsi ilə bağlı Nəsimi Rayon Məhkəməsinə müraciət edib.

Aydın Əliyev 10 iyun 2019-cu il tarixində partiya sıralarından kənarlaşdırılıb.

# Ceyhun Bayramovla Xavier Bettel arasında telefon danışığı olub

***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə Lüksemburq Böyük Hersoqluğunun xarici işlər və xarici ticarət naziri Xavier Bettel arasında telefon danışığı baş tutub.***




Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.

Qeyd olunub ki, telefon danışığında iki ölkə arasında əməkdaşlıq məsələləri, habelə regional və beynəlxalq təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Tərəflər Azərbaycan və Lüksemburq arasında mövcud münasibətlərin inkişafı, qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsində bu kimi təmasların əhəmiyyətli rolu olduğunu diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin gedişatı, hazırkı vəziyyəti barədə ətraflı məlumatlandırıb.

Ermənistan qanunvericiliyində ölkəmizə qarşı davam edən ərazi iddialarının, habelə bu ölkənin sürətli hərbiləşməsinin bölgədə dayanıqlı sülh quruculuğu prosesinə təhdid törədən əsas amillər olduğu vurğulanıb.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda 2 direktor vəzifələrindən azad edildi

***Bakı şəhərində yerləşən Fizika, riyaziyyat və informatika təmayüllü liseyin direktoru Tariyel Talıbov və Kimya, biologiya təmayüllü respublika liseyinin direktoru Kamran Rəhimov vəzifələrindən azad edilib.***

Onlar çalışmanın yaş həddinə çatma səbəbi ilə əmək fəaliyyətini başa vurublar. Direktorların əvəzinə hələlik təyinat yoxdur.

Qeyd edək ki, Talıbov Tariyel 1993-cü ildən Fizika, riyaziyyat və informatika təmayüllü liseyə rəhbərlik edirdi.

# "Koneks Construction" MMC-nin tender qalmaqalı...

## Elm və Təhsil Nazirliyinin dövlət satınalamaları ətrafında müəmmalar böyüyür

***"Tender kralı" kimi tanınan və əsasən təmir işləri ilə bağlı satınalma müsabiqələrinin qalibi seçilən, bəzi hallarda dövlət qurumlarına geyim satan "Koneks Construction" MMC həm də məişət cihazlarının satışını həyata keçirirmiş.***

Belə ki, şirkət Elm və Təhsil Nazirliyinin (ETN) Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin məktəbəqədər təhsil müəssisələri üçün maşın və avadanlıqların satın alınması ilə bağlı keçirdiyi tenderin qalibi olub. Tenderin şərtlərindən məlum olur ki, idarə şirkətdən pianino, kondisioner, dondurucu, paltaryuyan maşın, soyuducu, su qızdırıcı, piltə, aspirator, yağ radiatoru, səs gücləndirici, tozsoran, samovar, ətçəkən maşın, mikser, tərəzi, ütü və blender alacaq.

Bunun müqabilində "Koneks Construction" MMC-yə 3 285 565,1 manat ödəniləcək.

"Koneks Construction" şirkəti 27 noyabr 2019-cu ildə qeydiyyata alınıb. Şirkətin nizamnamə kapitalı 10 manatdır. Hüquqi ünvanı Bakı şəhəri Binəqədi rayonu, Səttar Bəhlulzadə küçəsi, ev 39, mənzil 202-də yerləşən MMC-nin qanuni təmsilçisi Fərzəliyev Mehdi Məhəmmədəli oğludur.

Lakin məsələ bütün bunlarla bitmir.

Hələ iki il öncə Xətai Rayon Mənzil Kommunal Təsərrüfat Birliyi (MKTB) məhəllədaxili yollarda asfalt örtüyünün təmiri işlərinin satın alınması üzrə elan etdiyi müsabiqənin qalibini açıqlamışdı. Həmin vaxt bildirilirdi ki, müsabiqənin qalibi "Koneks Consturction" MMC-dir. Satınalma müqaviləsinin maliyyə dəyəri isə 390 006.97 AZN-dir.

"İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarında "Koneks Construction" MMC-nin 27 noyabr 2019-cu ildə qeydiyyata alındığı göstərilir. Şirkətin nizamnamə kapitalı 10 AZN-dir. Hüquqi ünvanı Bakı şəhəri Binəqədi rayonu, Səttar Bəhlulzadə küçəsi, ev 39, mənzil 29-da yerləşir" deyə yerli media yazırdı. Lakin bir fərqlə: o zaman MMC-nin qanuni təmsilçisi Osmanlı Vahid Cuma oğlu göstərilirdi.

Üstəlik, bildirilirdi ki, açıq mənbələrdə Vahid Osmanlı barəsində hər hansı məlumat yoxdur. Xətai rayon MKTB iyun ayında da "Koneks Constructions" MMC ilə satınalma müqaviləsi imzalayıb. Maliyyə dəyəri 80 499.6 AZN olan müqavilədə yumşaq inventar və xüsusi geyimlərin satın alınması nəzərdə tutulur. Beləliklə, aydın olur ki, MKTB-yə yumşaq inventar və xüsusi geyimlər satan şirkət həm də asfalt çəkirmiş.

Bununla belə, "Koneks Constructions" MMC-nin dövlət satınalmalarında iştirakı ilə bağlı apardığımız araşdırmalar zamanı məlum olurdu ki, adı çəkilən şirkət, məsələn, 25 fevral 2021-ci il tarixdə Bakı Dövlət Universiteti ilə 172 601.81 AZN, martın 12-də 155 257.04 AZN, may ayında isə Nəsimi rayon MKTB ilə 202 379. 50 AZN dəyərində satınalma müqaviləsi imzalayıb. Üstəlik, göstərilən tarixdə şirkətin 904 AZN vergi borcu da varmış. Halbuki "Dövlət Satınalmaları haqqında" qanun isə vergi borcu olan şirkətlərin tenderlərdə iştirakını qadağan edir.

Şirkətlə bağlı müəmmalardan biri də onun yaranma tarixi ilə bağlıdır. Açıq mənbələrdə qeyd edilir ki, "Koneks Construction" MMC 2016-cı ildən tikinti sektorunda fəaliyyət göstərir. Lakin yuxarıda qeyd etdiyimiz kimi Dövlət Vergi Xidmətinin reyestr məlumatlarında şirkətin 2019-cu ildə yarandığı qeyd edilib. 2019-cu ildə yaradılan "Koneks Construction" MMC 3 il əvvəl necə fəaliyyət göstərib? Şirkətin nə veb-səhifəsi, nə də əlaqə nömrələri var. Bu baxımdan, yuxarıdakı sualın cavab tapmaq mümkün deyil.

Digər tərəfdən, adı daha çox inşaat şirkəti kimi bilinən bir MMC-nin müxtəlif dövlət qurumlarından müxtəlif, üstəlik, tamamilə bir-biri ilə əlaqəsiz istiqamətlər üzrə tender qalibinə çevrilməsi anlaşılmazdır. Bir az da dəqiqləşdirək: bir MMC həm tikinti, həm geyim, həm yumşaq inventar, həm məişət avadanlıqları kimi bir-birindən fərqli sahələr üzrə ixtisaslaşa, üstəlik, sadalanan istiqamətlərin hər biri üzrə böyük məbləğlərlə müşayiət olunan dövlət satınalmalarının qalibinə necə çevrilə bilər?!

Daha bir maraqlı nüans: Elm və Təhsil Nazirliyinin bir-birindən fərqli istiqamətlərdə "ixtisaslaşmış", geyim, məişət avadanlığı, yumşaq inventar və s. satan şirkətə təmir işlərini həvalə etməsi bu dövlət qurumunun keçirdiyi dövlət satınalmaları ilə bağlı KİV-də, sosial şəbəkələrdə və cəmiyyətdə gedən müzakirələri daha da alovlandırır. Aydın görünür ki, elm və təhsil naziri Emin Əmrullayev ETN daxilində tenderflərin ədalətliliyinə və şəffaflığına nəzarəti itirib. Bu iddianı yalnız yuxarıda yazılanlar yox, son bir neçə ildə Elm və Təhsil Nazirliyinin tikinti və təchizatla bağlı işlərinin böyük hissəsini "Simplex" Qapalı Səhmdar Cəmiyyətinə (QSC) həvalə etməsi də təsdiqləyir.



Yerli medianın araşdırmasından aydın olur ki, nazirliyin rəsmi saytında və rəsmi açıqlamalarında tenderlərlə bağlı heç bir informasiya olmasa da, "Simplex" Qapalı Səhmdar Cəmiyyətinin məlumatlarında onun tikinti və təchizatla ETN-nin çox sayda tenderini həyata keçirdiyi aydınlaşır. Belə aydın olur ki, adı çəkilən şirkət nazirliyi dəftərxana, təsərrüfat malları, maşın və avadanlıqlar, idman inventarları, mebellər, geyimlər və bilmədiyimiz bir çox mallarla təchiz edir; ən əsası, rəsmi şəkildə keçirilən və açıqlanan tenderlərlə yanaşı, sözügedən şirkət çoxlu sayda qapalı şəkildə aparılan tenderlərdə də qalib gələrək dövlət büdcəsindən böyük məbləğdə vəsait əldə edə bilib.

Bütün bunları ümumiləşdirikdə aydınlaşır ki, Emin Əmirullayev ETN xətti ilə keçirilən tenderlərin şəffaflığı, obyektivliyi, ədalətliliyi ilə bağlı daha diqqəti davranmalıdır, əks təqdirdə şübhə və müəmmalarla dolu dövlət satınalmaları onu da, nazirliyini də indikindən qat-qat çətin suallar qarşısında qoyacaq...

***Sənan Mirzə***

32_27 IYUI-QARA.qxd 9/12/2024 10:57 PM Page 4



# Region gücləri “Zəngəzur dəhlizi”ndə üz-üzə gəlir: Azərbaycan isə mövqeyində israrlıdır

***Ermənistan son günlər Naxçıvan istiqamətində təxribata əl atır və mövqelərimizə atəş açır. Ermənistanın bu təxribatları Zəngəzur dəhlizinin intensiv şəkildə gündəmə gəldiyi bir vaxta təsadüf edir.***

Nəzərə alaq ki, Naxçıvan Ermənistanla sərhəddə olmaqla yanaşı, Türkiyə, İran və Azərbaycan arasında mühüm bir nəqliyyat və hərbi qovşaq rolunu oynayır. Zəngəzur dəhlizinin reallaşdırılması ilə Naxçıvanın iqtisadi və strateji rolu daha da artmaqdadır. Ermənistan və Azərbaycan arasında baş verən hərbi insidentlər, xüsusilə Naxçıvan istiqamətindəki gərginlik regional güclərin maraqlarına toxunur və bu səbəbdən diqqətlə izlənilir.

Digər tərəfdən Ermənistana sentyabrın 26-da Fransa Prezidentinin səfəri gözlənilir. Səfər ərəfəsində gərginlik adı ilə Fransanın onlara hərbi baxımdan köməklik göstərməsini istəyəcəklər. Gərginlik abhavası yaratmaq üçün Ermənilər daim təxribatlara əl atırlar.

Onu da qeyd edək ki, İran və Rusiya arasında Zəngəzur dəhlizi ilə bağlı mübahisə yaranıb. Moskva dəhlizin açılmasını tələb edir, Tehran isə buna qarşı çıxır.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə ”Real TV”yə müsahibəsində deyib ki, Azərbaycan İran üzərindən kommunikasiya xətlərinin çəkilməsi istiqamətində işlər görür. Onun sözlərinə görə, Ermənistan Üçtərəfli Bəyanatı təhrif edir: ”Bu da bizdə təəssüf doğurur. Üçtərəfli sənədin 9-cü bəndində kommunikasiyaların açılması ilə bağlı konkret öhdəliklər var. Əgər Ermənistan hazırkı mövqeyində təkid edirsə, Azərbaycanın alternativ variantları var. Onlardan biri də İran üzərindən müvafiq kommunikasiya xətlərinin çəkilməsidir. Bu istiqamətdə müvafiq işlər gedir. Ermənistan özünütəcrid etmək siyasətini davam etdirirsə, bu, onun öz seçimidir. Bu seçim onların xeyrinə deyil”.

İqtisadçı ekspert Eldəniz Əmirov mövzu ilə bağlı “Unikal”a deyib ki, İranın Zəngəzur dəhlizini qırmızı xətt kimi qiymətləndirməsinin əsas səbəblərindən biri tranzit gəlirlərdən məhrum olmaq qorxusudur. O bildirib ki, İran ərazisindən keçən tranzit yüklərin həcmi ötən illə müqayisədə 30% artıb: ”Belə ki, 2023-cü ilin martından 2024-cü ilin yanvarına qədər İran ərazisi ilə 14,2 milyon ton yük tranzit keçib və İran bu 10 ay ərzində 1 milyard dollar qazanıb. 1979-cu ildən bəri sanksiyalar içində iqtisadiyyatı dağıdılmış İran bu növ gəlirlərə hazırda çox böyük ehtiyac duyur. İldən- ilə sanksiyaların sayı və əhatə dairəsi artır. Hələ iki il əvvəl İrana tətbiq edilən sanksiyalardan bəhs edən bir sənəd qarşıma çıxmışdı. Materialın həcmi az qala 100 vərəqə çatırd və oxuduqca bitmirdi. Belə bir iqtisadi-siyasi sıxıntı yaşayan İran üçün tranzit ölkə kimi gəlir əldə etmək son çıxış yoludur”.

Ekspert qeyd edib ki, bu gün Türkiyənin xarici ticarət strategiyasında Mərkəzi Asiya prioritet istiqamətdir: ”Ümumiyyətlə, Vahid Türk Dünyası prinsiplərinin gerçəkləşməsi Türkiyənin xarici iqtisadi siyasətində Asiyaya doğru inkişaf meyllərini ciddi şəkildə artırıb. 2023-cü ilin sonunda Türkiyə ilə Qazaxıstan arasında ticarət dövriyyəsi rekord həddə - 6,4 milyard dollara çatıb. Özbəkistanla ticarət dövriyyəsi 3 milyard dollara çatıb, yaxın illərdə 5 milyard dollara çatmaq perspektivi var. Türkiyə Mərkəzi Asiya ölkələrinin beş əsas ticarət tərəfdaşından biridir və Türkmənistan üçün Türkiyə son illərdə Çini keçərək bir nömrəli ixracatçı olub. Deməli, əgər Zəngəzur dəhlizi olmasa, Türkiyənin Mərkəzi Asiya üzrə artacaq ticarət dövriyyəsi İran üçün əla tranzit gəlirləri əldə etməsinə imkan, Türkiyənin özü üçün isə əlavə manea və daha çox xərc deməkdir. Odur ki, bu gün Zəngəzur dəhlizi Azərbaycan və Ermənistan arasında olmaqla bərabər, həm də Türkiyə, İran, Rusiya, Amerika, Fransa və region ölkələri arasında mübarizə obyektidir. İran isə qaçıracağı fürsətlərdən narahat olduğu üçün bu dəhliz üzərində daha çox həyəcanlıdır. Amma heç vaxt həyəcan nəticəni dəyişə bilmir”.

Siyasi şərhçi Aqşin Kərimov son günlər Zəngəzur dəhlizi uğrunda başlanan geopolitik mübarizədən danışarkən bildirib ki, Zəngəzur dəhlizinin reallaşması məsələsini Rusiya son aylarda canlandırmaq istəyir, amma bu koridorun məkan olaraq geosiyasi şüura təsirləri Moskva üçün həm əməkdaşlıq modeli, həm də müqavimət yaradır. Onun sözlərinə görə, İran Zəngəzur zonasını özünün geosiyasi və ideoloji çərçivəsində görür və bilir ki, bu dəhlizin açılması Tehranın müqavimət oxu yaratmaq ideallarına qarşı ideoloji zərbə vuracaq: “Əsasən də, Zəngəzur dəhlizinin türk dövlətləri birliyinin təmini kontekstindəki əhəmiyyəti İranın geniş regional ideoloji bucaqlarının dərəcələrini azaldır. Bu baxımdan, İranın yanaşması Tehranın geosiyasi mülahizələrini və aksentlərini gücləndirsə də, pəncərənin digər tərəfində ideoloji narahatlıqlar dayanır”.




Ekspert qeyd edib ki, ancaq ortada İranın da iddialı gündəmini aşan daha nəhəng maraqlar var, misal üçün, Rusiya ilə yanaşı, Azərbaycanın strateji müttəfiqi Türkiyə, NATO, Çin də Zəngəzur dəhlizinin perspektivinə dəstək verir. Bununla belə, məntiq fərqliliyi rəqiblərin bir-birlərinə qarşı mübarizədə geosiyasi təsirlərini cilovlamaq məqsədlərini elan edir: “Misal üçün, Rusiya və ABŞ Zəngəzur dəhlizini Cənubi Qafqazda biri digərinə qarşı kart kimi istifadə edir. Alternativ qlobal güc olan Çin isə ümumiyyətlə fərqli bir məntiq irəli sürür, dəhlizin parametrlərini özünün yeni şəkil alan geosiyasi konsepsiyasına inteqrasiya edir. Beləliklə, Zəngəzur dəhlizi Cənubi Qafqazda böyük güclərin rəqabətini stimullaşdıran bir səhnə olmaqla yanaşı, həm də regionda ambisiyaların ram edilməsi prosesini başladır”.

A.Kərimov hesab edir ki, böyük oyunçuların Zəngəzur dəhlizini həll etmək məqsədləri İranın daha sərt mövqeyinin işıqlanmasına gətirib çıxarır. Onun sözlərinə görə, Tehran düşünür ki, dəhlizdə uduzmaqla Cənubi Qafqaz və Mərkəzi Asiyada güc balansını və əlaqələrini itirəcək, hərçənd, bu yanaşma məntiq cəhətdən əsaslandırılmış forma ala bilmir. İran geosiyasi imkanları baxımından Zəngəzur dəhlizinin açılmamasını özünün xeyrinə strateji döngə kimi qəbul etsə də, Tehranın müqavimətinin davamlı olacağı şübhəli görünür. Çünki Zəngəzur dəhlizi potensial olaraq qlobal və regional ölçülərdə daha böyük alternativlər təqdim edir.

“İranın təkbaşına buna qarşı müqavimət göstərə bilmək imkanları yoxdur, belə olan təqdirdə, bir məsələ gündəliyə gəlir. Görəsən İran Zəngəzur dəhlizinə yanaşmasını redaktə etsə, bunun müqabilində hansı regional güzəştlər qoparacaq? İranın xarici siyasət kodeksləri üzrə geosiyasi hesablama aparılsa, demək mümkündür ki, Tehran dəhlizə razı olsa, bunun qarşılığında Suriya, İraq cəbhələrində kompromislər əldə etmək siyasətini danışıqlar masasına qoyacaq”. - deyə Aqşin Kərimov fikirlərini yekunlaşdırıb.

Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov modern.az-a İranın Zəngəzur dəhlizi ilə bağlı mövqeyindən də danışıb. Onun sözlərinə görə, İranın Zəngəzur dəhlizi ilə bağlı etirazlarının kimə qarşı olduğu bilinmir: “Rusiyaya qarşı fikirlər səsləndirirlər, amma eyni zamanda NATO dəhlizinin yaranmasına biz etiraz edirik deyirlər. Onlar yaxşı başa düşürlər ki, Qərbin mövqeyi də Zəngəzur dəhlizinin açılması istiqamətindədir. Bunu açıq şəkildə ABŞ dövlət katibinin yardımçısı Obrayn Ermənistanda elan edib. Burada digər səbəblər də var. Bir ay öncə İran rəhbərliyi İsraildən qisas alacaqları ilə bağlı çoxlu sayda bəyanatlar verirdi. Mövzu, demək olar ki, gündəmdən çıxdı. Gündəmə gətirmək üçün birdən-birə Zəngəzur dəhlizi yadlarına düşdü. Hesab edirəm ki, burada İranın mövqeyi məntiqdən uzaqdır. Çünki deyirlər ki, xarici qüvvələr kommunikasiyalara nəzarət etməsinlər. Bəs bunların xəbərləri yoxdur ki, 1992-ci ildən artıq ruslar ordadır. Rus sərhədçiləri 30 ildən çoxdur ki, onlarla qarşı-qarşıya dayanırlar. İndi bu mövzuya etiraz etmək nəinki, məntiqdən, ağıldan da uzaqdır. Hesab edirəm ki, bu təbliğat dalğasıdır və müvəqqətidir. İranın daxildə gedən çəkişmələrə görə hansısa şəkildə xarici mövzuları istifadə etmək cəhdidir. Danışırlar danışsınlar da. İranın daxilində problemləri var. İnanmıram ki, bu problemləri həll etməyincə İran digər hansısa istiqamətdə addımlar atsın”.

***Murad İbrahimli***

32_27 IYUl-QARA.qxd 9/12/2024 10:58 PM Page 5



# Rəsmi Bakıdan Fransanın bəyanatına cavab



***Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Fransa vətəndaşı Teo Klerkə qarşı guya "ayrıseçkilik" edilərək onun barəsində məhkəmə tərəfindən "haqsız qərar verilməsi" barədə bəyanatı, bununla, özünü "hüquqi dövlət" adlandıran Fransanın Azərbaycanın məhkəmə prosedurlarını heçə sayması qəbuledilməzdir. Fransa tərəfindən səsləndirilən iradlarının heç bir əsası yoxdur.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.

Qeyd olunub ki, dövlət əmlakına qəsdən ziyan vuran Fransa vətəndaşı və digər şəxslərə qarşı verilən hökm məhkəmənin səlahiyyətindədir və bu qərarı sual altına almağa Fransa tərəfinin ixtiyarı yoxdur.

Fransa vətəndaşı Azərbaycan Cinayət Məcəlləsinin əmlakı qəsdən məhv etmə və ya zədələmə maddəsi ilə azadlıqdan məhrum olunub. Qeyd edək ki, bu kimi əməllərə görə Teo Klerk əvvəllər Fransada da cəzalandırılıb və ona qarşı cərimə tətbiq olunub.

Ümumilikdə, istintaqın və məhkəmənin gəldiyi qənaətə görə, Fransa vətəndaşı cinayətin törədilməsində xüsusi təşəbbüskarlığı və fəallığı ilə seçilib. Həmçinin məhkəmə istintaqı zamanı onun verdiyi ifadələrin işin obyektiv halları ilə uyğunluq təşkil etmədiyi də məlum olub.

Eyni əmələ görə əvvəllər müəyyən məbləğdə cərimə edilsə də, Azərbaycanda bu xarakterli əməllərin qeyri-qanuniliyindən məlumatsız olması ilə bağlı onun məhkəməyə verdiyi qeyri-səmimi ifadələri, o cümlədən törətdiyi əməldən peşman olmaması onun digər iki şəxs ilə müqayisədə cəzasının daha ağır olmasını şərtləndirən amillər kimi sadalamaq olar.

Azərbaycanda məhkəmə hakimiyyətinə və insan hüquqlarına dair iddia səsləndirən, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Fransanın beynəlxalq hüquq pozuntuları, neo-kolonial siyasəti, irqçilik, diskriminasiya, İslamofobia, insan hüquqlarının məhdudlaşdırılması kimi fəaliyyəti hər kəsə məlumdur. Buna görə də, Fransanın bu fəaliyyətindən dərs çıxarması daha faydalı olardı.

# "Büdcə planlamasında boşluqlar var" - Palata

***Azərbaycanın dövlət büdcəsindəki planlama ilə bağlı boşluqlar əlavə xərc ehtimalı (faiz xərcləri timsalında) formalaşdırır.***

"Unikal" xəbər verir ki, bu barədə Hesablama Palatasının büdcənin parametrlərinin təhlili barədə yaydığı məlumatda bildirilib.

Qeyd olunub ki, hesabat ilində büdcə gəlirləri (əksər inzibatçı qurumlar üzrə) proqnozdan əhəmiyyətli artımla yerinə yetirilib. Gəlirlərin proqnozlaşdırılandan artıq yerinə yetirilməsi müsbət məqamlarla yanaşı, maliyyə planlaşdırılması üzrə bir sıra risklərə səbəb olmaqdadır.

Belə ki, ilkin təsdiq edilmə zamanı potensialın tam nəzərə alınmaması il ərzində büdcəyə yenidən baxılma zərurətini yaratmaqla həmin gəlir mənbələri üzrə maliyyələşəcək xərclərin ilin sonuna qalmasına səbəb olmaqdadır. Planlama ilə bağlı boşluqlar əlavə xərc ehtimalını (faiz xərcləri timsalında) formalaşdırmaqdadır.

Bundan başqa Hesabat ilində də büdcənin icrası prosesində aparılan dəyişikliklərlə il ərzində yaranan maliyyə tələbatı təmin edilinməyib və yenidən baxılma zərurət yaranıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Ukrayna Azərbaycanla işləyir - Zelenskidən açıqlama

***Krım tatarları da daxil olmaqla, ukraynalı siyasi məhbusların azadlığa buraxılması ilə bağlı Rusiya ilə danışıqlar çətindir.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna prezidenti Volodimir Zelenski Krım Platformasının dördüncü sammiti iştirakçılarının mətbuat konfransında deyib.

Zelenski Ukraynanın beynəlxalq tərəfdaşlarını Rusiyaya təzyiq göstərməyə çağırıb ki, əsirlərin mübadiləsi "hamının hamıya" düsturuna uyğun baş versin və təkcə hərbi əsirlər deyil, həm də siyasi məhbuslar azad edilsin: "Hərbi əsirlərin mübadiləsi var, çünki biz hərbi əsirləri hərbi əsirlərlə dəyişdirə bilərik".

Onun sözlərinə görə, bununla bağlı Ukrayna BƏƏ, Qətər, Türkiyə, Azərbaycan və müsəlman dünyasında böyük nümayəndəliyə və böyük nüfuza malik olan ölkələrlə işləyir.

***Ağarza Elçinoğlu***

# MSK 20 müraciəti araşdırır

## Məzahir Pənahov: "Daxil olan müraciətlərin hamısına baxılacaq"

***Mərkəzi Seçki Komissiyasının araşdırmasında 20 müraciət var.***

"Unikal"ın məlumatına görə, bunu MSK-nın sədri Məzahir Pənahov Komissiyanın iclasında deyib. O qeyd edib ki, indiyə qədər olan müraciətlər dairələrin səlahiyyətində olan müraciətlər idi. M.Pənahov vurğulayıb ki, daxil olan müraciətlərin hamısına baxılacaq.



42 saylı Sumqayıt Birinci Seçki Dairəsindən namizədlər - Mayılova Şəfəq və Quliyeva Ulduz İsmixan qızının birgə müraciəti daxil olub.

Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında MSK üzvü Nailə Əsgərova məlumat verib. O bildirib ki, onların müraciəti qanunvericiliklə müəyyən edilmiş vaxtı keçib: "Buna görə də şikayətçiyə geri göndərilsin". Məsələ səsverməyə çıxarılıb və müraciət geri göndərilib.

# Anar Ələkbərov Vatikanda rəsmi şəxslərlə görüşlər keçirdi

***Vatikan şəhəri dövləti üzrə qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında (Basilica of Saint Paul Outside the Walls) bərpa işlərinə dair müqavilə imzalanıb.***

"Unikal" xəbər verir ki, sənədi Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa imzalayıblar.

Vatikana səfər çərçivəsində eyni zamanda Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa və bir sıra digər rəsmi şəxslərlə görüş keçirilib. Görüşdə Azərbaycanla Müqəddəs Taxt-Tac arasında əlaqələr, Heydər Əliyev Fondu ilə birgə layihələr müzakirə olunub.

Qeyd edək ki, ötən müddətdə Heydər Əliyev Fondu Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin bərpasına, mədəni irsin qorunması sahəsində işlərə öz töhfəsini verib.

Daha sonra Azərbaycan nümayəndə heyəti Müqəddəs Pavel Bazilikasını ziyarət edib.

Müqəddəs Pavel Bazilikası Vatikanın ən böyük abidələrindəndir və 1980-ci ildən UNESCO-nun Ümumdünya İrs Siyahısına daxildir. 2025-ci ildə Vatikanda hər 25 ildən bir təşkil olunan Müqəddəs Yubiley İli çərçivəsində 30 milyondan çox katolik zəvvarın bu kilsəni ziyarət etməsi gözlənilir. Bərpa işləri, ilk növbədə, 2025-ci ildə keçiriləcək Müqəddəs Yubiley İli zamanı ziyarətçilərin bu dini ocağa təhlükəsiz girişinin təmin edilməsi məqsədilə aparılır.



# Qalib namizədin müəyyənləşdirilməsi baxımından problem olmayıb

***Parlament seçkilərində 125 dairədən bir əlin barmağı ilə sayılacaq dairədə xoşagəlməz hal olması iddiası olub.***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında MSK sədri Məzahir Pənahov deyib.

MSK sədri bildirib ki, bu, özü böyük nailiyyətdir: "Sosial şəbəkədə çox az dairədə xoşagəlməz hal olması iddiası olub. Biz daxil olan görüntüləri araşdırırıq. Çalışırıq ki, kiçik də olsa seçicilərin iradəsini ortaya qoymağa mane olan hal varsa, ciddi reaksiya verək. Bu ondan xəbər verir ki, prinsipcə seçkilərdə qalib namizədin müəyyənləşdirilməsi baxımından problem olmayıb".



# Azərbaycan, Qazaxıstan, Türkiyə, Pakistan, Qətər və Özbəkistan xüsusi təyinatlılarının təlimi

***Qazaxıstanın Türküstan vilayətində yerləşən Orda poliqonunda keçirilən "Sonsuz qardaşlıq - III" çoxmillətli təlimi davam edir.***

"Unikal" Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, Azərbaycan, Qazaxıstan, Türkiyə, Pakistan, Qətər və Özbəkistan xüsusi təyinatlıları poliqonda yaradılmış təlim nöqtələrində taktika, atəş, snayper, dağ və paraşüt hazırlığı üzrə praktiki məşqləri yerinə yetirirlər.

Çoxmillətli qruplar halında keçirilən döyüş hazırlığı məşğələləri iştirakçı ölkələrin hərbi qulluqçularının təcrübəsindən bəhrələnməyə və onların tətbiq etdiyi forma və metodları mənimsəməyə imkan yaradır.

Təlimin növbəti mərhələsində iştirakçı bölmələrin qarşısında yaşayış məntəqəsindəki qeyri-qanuni silahlı dəstənin aşkar edilməsi və zərərsizləşdirilməsi üzrə təlim-döyüş tapşırığı qoyulub.

Real döyüş şəraitinə uyğunlaşdırılmış təlimdə xüsusi təyinatlılar tapşırıqların icrası zamanı yüksək peşəkarlıq nümayiş etdiriblər.

Bu cür təlimlər bölgələrdə sülhün və təhlükəsizliyin təmin olunması məqsədilə səylərin birləşdirilməsinə xidmət edir və şəxsi heyətin qarşılıqlı əlaqədə qarşıya qoyulmuş tapşırıqların uğurlu icrasına böyük töhfə verir.



32_27 IYUl-QARA.qxd 9/12/2024 10:58 PM Page 6



# Azərbaycan dini və mədəni müxtəliflik siyasətinə sadiqdir



***Beynəlxalq ictimaiyyət Azərbaycanın bəşəriyyətin dini-mədəni incilərinə olan münasibətini yaxşı bilir. Hətta Roma Papası Fransisk 2016-cı ildə Bakıda olanda bəyan etmişdi ki, "Azərbaycan müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasında əməkdaşlıq yolunu davam etdirsin". Bu mesaj özlüyündə Azərbaycanın dinlərarası və mədəniyyətlərarası prosesdəki rolunu təsdiqləyən və onu nümunə göstərən əhəmiyyətli bəyanat idi.***

Lakin Vətən müharibəsi dövründə Ermənistan dəfələrlə xristian təəssübkeşliyindən istifadə edib dəstək qazanmağa, din amilindən yararlanıb Azərbaycanın haqq işinə kölgə salmağa çalışdı və bu işdə erməni siyasi dairələri ilə yanaşı, erməni din xadimləri də fəal iştirak edirdi. Ancaq o müraciətlərin heç birinə reaksiya verilmədi. Çünki müraciətlərin ünvanlandığı liderlər və dini mərkəzlər ölkəmizdəki proseslərdən, Azərbaycan hökumətinin və xalqının, Azərbaycan Prezidentinin dinlərə, dini abidələrə münasibətindən yaxşı xəbərdar idilər.

Azərbaycan həm dövlət səviyyəsində, həm də Heydər Əliyev Fondunun xətti ilə indiyə qədər yerli və beynəlxalq səviyyədə bir sıra dinlərə mənsub abidələrin bərpasında və qorunmasında uğurla iştirak edib. Məsələn, Bakı və Azərbaycan Yeparxiyası üçün Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa olunub. Qəbələdəki Çotari Alban-udi və Bakıdakı Pravoslav kilsələri təmir edilib. Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində reallaşdırılıb. Heydər Əliyev Fondu Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsini də bərpa edib.

Bundan başqa, Vatikanda yerləşən Müqəddəs Mercellinio və Pietro katakombaları Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış saziş çərçivəsində bərpa olunub və bu, xristian dünyasında ilk hadisə idi ki, müsəlman ölkəsi xristian abidələrinin qorunması ilə bağlı Vatikanın müraciətinə müsbət cavab vermişdi.

Azərbaycan öz nəcib missiyasını bu gün də davam etdirir. Heydər Əliyev Fondunun Müqəddəs Pavel Bazilikasının bərpasında iştirakı deməyə əsas verir ki, Azərbaycan dini və mədəni müxtəliflik siyasətinə sadiqdir, bu ənənələr keçmişdə olduğu kimi bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. 1980-ci ildən UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən və Vatikanın ən böyük abidələrindən olan Müqəddəs Pavel Bazilikasının bərpası ilə bağlı Heydər Əliyev Fondu ilə Vatikan şəhəri dövləti üzrə qubernatorluğu arasında imzalanan müqavilə Azərbaycanın xristian dünyasına töhfəsi olmaqla dünyadakı müxtəlif dini təşkilatlarla əlaqələri daha da gücləndirməyə xidmət edən mühüm hadisədir.

"Qurani-Kərim"də buyurulur: "Allahın məscidlərində onun, yəni Allahın adının çəkilməsinə maneçilik törədənlərdən və onların xarab edilməsinə çalışanlardan daha zalım kim ola bilər? Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük əzab gözləyir". İncildə isə yazılır: "kim Allahın məbədini məhv edirsə, Allah da onu məhv edəcək, çünki Allahın məbədi müqəddəsdir".

# COP29-la bağlı qlobal kampaniyaya start verilib

***BMT-nin Iqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində yenilikçi ideyaları olan müxtəlif regionlardan fərdlərin və novatorların həyata keçirdiyi layihələri və fəaliyyətləri işıqlandırmaq üçün "Fərqlilik yaradanlar" adlı qlobal kampaniyaya start verildiyini elan edib.***

"Fərqlilik yaradanlar" kampaniyası çərçivəsində sosial sahibkarların, icma nümayəndələrinin və startap ideyaları olan fərdlərin layihələri seçilərək müxtəlif platformalarda nümayiş etdiriləcək.

Kampaniyanın məqsədi hər bir fərdin ətraf mühitə müsbət təsir edəcək fəaliyyət göstərmək iqtidarında olduğunu göstərmək, hər kəsi iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulmağa çağırmaq və ruhlandırmaqdır.

Kampaniya zamanı seçiləcək layihələr həm onlayn platformalarda, həm də Azərbaycanda keçiriləcək COP29 zamanı "Fərqlilik yaradanlar" sərgisi çərçivəsində təqdim olunacaqdır.

"Fərqlilik yaradan" nominasiyası üzrə qalib namizədlərin seçilməsi beynəlxalq tədqiqat institutları, sosial təşkilatlar və kommunikasiya platformalarının nümayəndələrindən ibarət olan Komitə tərəfindən aparılacaqdır. "Fərqlilik yaradanlar"ın qiymətləndirilməsi zamanı onların innovativ yanaşmaları, yaradıcılıq məharətləri və ünsiyyət bacarıqları, eləcə də təşəbbüslərinin təsir və miqyası nəzərə alınacaqdır.




Kampaniyanın geniş əhatəli, inklüziv və əlçatan olmasını təmin etmək üçün LinkedIn, İnstagram, TikTok və "X" sosial şəbəkələrindən istifadə olunacaqdır. Arzu edən hər kəs öz icmasında, şəhərində və ya şirkətində iqlim həlləri üzrə həyata keçirdikləri təşəbbüslərin "əvvəl və sonrakı" mərhələlərini əks etdirən fotoşəkilləri və ya videoları #COP29ImpactMakers heştəqi ilə bölüşərək layihələrini necə başladıqlarını və hazırda necə davam etdiklərini paylaşa bilər.

"İqlim dəyişmələri qlobal cavab tədbirlərini tələb edən problemdir. Bu eyni zamanda, həm də gələcək nəsillər üçün ədalətli dünya yaratmaq və fəxr edə biləcəyimiz irs qoymaq baxımından unikal fürsətdir" - deyə COP29 İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai izah edir: "BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu kimi, mən bir çox insanların iqlim dəyişməsinin təsirlərinə qarşı ilhamlandırıcı hekayələrinin şahidi oluram, amma çox zaman bu hekayələr paylaşılmamış qalır. Ətraf mühitə müsbət təsir göstərən, fərqlilik yaradan bu hekayələri bütün insanlara çatdırmaq istəyirəm. Çünki belə şəxslərin fəaliyyəti hər kəsi sağlam gələcək üçün qlobal fəaliyyətə ilhamlandıracaq."

İlk "Fərqlilik yaradanlar" sentyabrın 23-də ABŞ-ın Nyu-York şəhərində keçiriləcək İqlim Həftəsində kampaniyanın rəsmi başlanğıcına həsr olunmuş tədbir zamanı seçiləcək və təqdim olunacaqlar.



# Ceyhun Bayramov Əlcəzairin Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib

***Sentyabrın 12 -də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Əlcəzair Xalq Demokratik Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş səfiri Zəkiyyə İğılı qəbul edib.***

"Unikal" XİN-ə istinadən xəbər veir ki, görüşdə, Azərbaycan və Əlcəzair arasında mövcud əməkdaşlıq gündəliyinin inkişaf perspektivləri, habelə regional və qlobal məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov təyinatı münasibətilə səfir Zəkiyyə İğılı ürəkdən təbrik edib, ona diplomatik fəaliyyətində uğurlar arzu edib.

Cari ilin ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlamətdar olduğunu qeyd edən nazir Ceyhun Bayramov, bu illər ərzində əməkdaşlığımızın inkişafında qarşılıqlı səfərlərin, habelə intensiv siyasi dialoqun əhəmiyyətli rol oynadığını diqqətə çatdırıb. Bir sıra istiqamətlər, o cümlədən iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, humanitar və s., üzrə əməkdaşlığın inkişafı üçün perspektivlərin mövcud olduğu, bu xüsusda imkanların müzakirəsi istiqamətində siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlığın bundan sonra da davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov, həmçinin qarşı tərəfi 44 günlük Vətən müharibəsindən sonra bölgədə mövcud vəziyyət, postmünaqişə dövrünün reallıq və çağırışları, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, o cümlədən Azərbaycan və Ermənistan arasında normallaşma və sülh gündəliyi barədə ətraflı məlumatlandırıb. İstər keçmiş münaqişə, istərsə də postmünaqişə dövründə beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə ərazi bütövlüyü və suverenliyimizə göstərilən dəstəyə görə Əlcəzair tərəfinə təşəkkür edilib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# MSK Müsavat Partiyasının namizədinin müraciətini əsassız sayıb

***31 saylı Suraxanı İkinci Seçki Dairəsindən Müsavat Partiyasından qeydə alınmış namizəd Bulud Ərzullanın müraciətinə baxılıb.***



Müraciət barədə Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında MSK üzvü İlkin Şahbazov məlumat verib.

O bildirib ki, ərizəçi həmin dairənin 8 seçki məntəqəsində pozuntu olduğunu bildirib: "O bizə 14 videogörüntü təqdim edib. Videogörüntülər seçki məntəqəsindən kənarda çəkilib. Buna görə də ərizəçinin müraciəti təmin edilməməlidir. Buna görə də dairə seçki komissiyasının qərarı qüvvədə saxlanılsın".

Məsələ səsverməyə çıxarılıb və DSK-nın qərarı qüvvədə saxlanılıb.



# Parlamentin yeni deputatları ilk bu qanunları müzakirə edəcək

***Milli Məclisin payız sessiyasının plenar iclası Daxili Nizamnaməyə əsasən, sentyabrın 30-da başlanır və dekabrın 30-dək davam edir.***

Əgər sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır.

Yeni çağırış Milli Məclisdə ilk müzakirə olunan mövzular COP-29-la əlaqədar olaraq ekoloji sahədə olacaq.

Belə ki, COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, bəzi məsələlərlə bağlı Azərbaycan qanunlarında, habelə İnzibati Xətalar Məcəlləsində, Cinayət Məcəlləsində dəyişiklik edilməsi ilə bağlı layihələr təsdiq edilməsi məqsədilə Milli Məclisə təqdim edilib.

"Heyvanlar aləmi haqqında", "Balıqçılıq haqqında", "Ovçuluq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan qanunlarında, habelə İnzibati Xətalar və Cinayət məcəllələrinə dəyişiklik edilməsi ilə bağlı layihələr təsdiq olunması məqsədilə Milli Məclisə təqdim edilən qanun layihələri arasındadır.

Bununla bərabər "Təhlükəli və təbii fəlakət törədə bilən təhlükəli hidrometeoroloji hadisələrin meyarları haqqında təlimat, "Azərbaycan Respublikasının Daşaltı Dövlət Təbiət Yasaqlığı haqqında" Əsasnamə təsdiq olunub. Hazırda 5 qanun layihəsi - "Atmosfer havasına atılan istixana effekti yaradan qazların idarə edilməsi haqqında", "Qablaşdırma və qablaşdırma tullantılarının dövriyyəsi haqqında", "Heyvanlarla məsuliyyətli davranış haqqında", "Ekoloji maarifləndirilmə haqqında", "Yerin təki haqqında" qanun layihələri, "Azərbaycan Respublikasında meşələrin davamlı inkişafına dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" razılaşdırılma mərhələsindədir.

# "Formula 1"ə saxta bilet satan şəxs saxlanıldı

***DİN Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində "2024 Formula 1 Azərbaycan Qran-Prisi" yarışlarına saxta biletlər hazırlayaraq satışını təşkil edən əvvəllər məhkum olunmuş Elmar İsrafilov saxlanılıb.***

DİN-dən "Unikal"a verilən məlumata görə, müəyyən edilib ki, bu şəxs "Instagram" sosial şəbəkəsində yaratdığı profillərdə onlayn qaydada məlumatları dəyişdirilmiş saxta biletlər yerləşdirərək satışı ilə məşğul olub. E.İsrafilov bu yolla 30 nəfərdən artıq şəxsə saxta bilet sataraq maddi gəlir əldə edib. Aparılan əməliyyat-texniki tədbirlər zamanı saxlanılan şəxsin törətdiyi hüquqazidd əməllər tam sübuta yetirilib.

Faktla bağlı Baş İdarədə araşdırmalar davam etdirilir.

Sonda bir daha qeyd edək ki, "Formula 1 Azərbaycan Qran-Prisi"ni canlı izləmək istəyən şəxslərə biletləri yalnız yarışın rəsmi internet ünvanı, digər partnyor sayt və satış məntəqələrindən əldə etmələri tövsiyə olunur.

# "Azərbaycanın sülh müqaviləsi ilə bağlı şərti bəllidir"

## Fərhad Məmmədov: "Belə şəraitdə Ermənistanı vadar etmək lazımdır ki, daha tez Azərbaycanın şərtlərini qəbul edib sülh sazişini imzalamağa hazır olsun"



***Siyasi şərhçi Fərhad Məmmədov "Unikal"a müsahibə verib. O, son günlər Zəngəzur dəhlizi ilə bağlı İran-Rusiya arasında səsləndirilən fikirlərdən, bu dəhlizin nə zaman açıla biləcəyindən, Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Naxçıvan istiqamətində mövqelərimizin atəşə tutulmasından və Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin nə zaman imzalana biləcəyindən danışıb.***

***-Fərhad müəllim, son günlər Zəngəzur dəhlizi ilə bağlı İran və Rusiya arasında qarşılıqlı ittihamlar səngimir. Moskva tərəfi bəyan edir ki, dəhliz atəşkəs razılaşmasında nəzərdə tutulduğu qaydada açılmalıdır. İranın xarici işlər naziri Abbas Əraqçi isə Zəngəzur dəhlizinin İranın "qırmızı xətti" olduğunu deyib. İran rəsmisinin bu açıqlaması Tehranın sözügedən dəhlizin açılmasına mane olması anlamına gəlir. İran tərəfi Zəngəzur dəhlizinin açılmasını nədən istəmir?***

-Ümumiyyətlə, İran Ermənistan-Azərbaycan sülhünü istəmir. Hər vəclə çalışır ki, sülh prosesi uzansın. Rusiya və Türkiyədən fərqli olaraq İran 30 il ərzində Cənubi Qafqazda hər hansı müttəfiq ölkə qazana bilməyib. Hətta strateji əməkdaşlıq etdiyi ölkə də yoxdur. 44 günlük Vətən müharibəsindən sonra regionda Rusiya və Türkiyənin rolu artmaqdadır. Ukrayna müharibəsindən sonra Rusiyanın siyasi cəhətdən mövqeləri zəifləyir, iqtisadi cəhətdən artır. Türkiyənin isə potensial olaraq regionda mövqelərinin güclənməsini gözləyirik. Ona görə ki, Ermənistan Türkiyə sərhədi açılandan sonra Türkiyə bütün üç dövlətlə diplomatik və iqtisadi münasibətlərə sahib olacaq. Belə olan halda İran həm regiondan keçən strateji layihələrdən məhrum olur, eyni zamanda qəbul etmək məcburiyyətindədir ki, bu regionda Türkiyənin rolu hamıdan daha çox olacaq. Belə olan halda İran ələlxüsus regional kommunikasiya layihələrinin həyata keçirilməsinin qarşısını alır və Zəngəzur dəhlizi söhbəti də məhz buna görə istifadə olunur. Belə olan halda Ermənistan-Azərbaycan kommunikasiyaları açılmır. Azərbaycan və Türkiyə İranın şərtləri ilə məcbur olub hesablaşır. Çünki bu kommunikasiya xətti onların ərazisindən keçəcək. Yəni, İran bu addımları ilə Ermənistanın maraqları hesabına öz istəklərini həyata keçirir.

***-Uzun müddətdir ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələ müzakirə olunur. Yaxın vaxtlarda bu dəhlizin açılmasının şahidi olacağıq?***

-Hər şey Ermənistandan asılıdır. Ona görə ki, Ermənistan Azərbaycanın tələblərini bilir və bunların altından imza atıb. Azərbaycan üçün vacib olan odur ki, bu keçid vətəndaşlarımız və yüklər üçün maneəsiz olsun. Bunu hansı formada təşkil edəcəksə, bu artıq Ermənistandan asılıdır. İkinci məqam odur ki, Ermənistan subyekt kimi çox zəifdir. Ayətullah Əli Xamenei Ermənistanın baş naziri Nikol Paşinyanın yanında Zəngəzur dəhlizinin Ermənistan xalqının maraqlarına cavab vermədiyini deyir. Halbuki Ermənistanın təklif etdiyi kommunikasiyaların açılması layihəsində Zəngəzur dəhlizi və o kommunikasiya var. Belə olan halda Ermənistanın Azərbaycanın şərtlərini özündə ehtiva edən təklifi verməməsi dəhlizin açılmasına maneəçilik törədir.

***-Bu məsələlərin müzakirəsi fonunda son bir neçə gündür ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Naxçıvan istiqamətində mövqelərimizi atəşə tutur. Atəşkəsin bu istiqamətdən pozulmasında məqsəd nədir?***

-Ermənistan atəşkəsi pozmaqla bir neçə məqsəd güdür. İlk növbədə "Azərbaycanın aqressiyası" mövzusunu şişirdərək Qərbdən daha çox siyasi, iqtisadi və hərbi dəstəyin alınmasını təmin edir. Belə atışmaları öz maraqları çərçivəsində istifadə edir ki, Ermənistan daim Qərbin gündəliyində aktual mövzu kimi qalsın. Azərbaycan tərəfi bildirir ki, Ermənistan birinci atəş açır. Lakin Ermənistan tərəfi ümumiyyətlə atəşkəsin pozulması faktını inkar edir. Əvvəllər deyirdilər ki, Azərbaycan tərəfi birinci atıb. Bunlar atəşkəsin pozulması faktını danırlar. Bu faktı danmaqla yanaşı Azərbaycanla ikitərəfli komissiyanın yaradılmasını təklif edirlər. Hər zaman bu təklifi aktual saxlayırlar. Provakasiyalar həyata keçirməklə təkliflərinin gündəlikdə olması, beynəlxalq ictimaiyyətin diqqətini çəkmək məqsədilə istifadə edirlər.

***-Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı bildirib ki,sülh müqaviləsi layihəsində tam və rəsmi razılaşdırılan 13 maddə var. O, daha 3 maddənin isə qismən razılaşdırıldığını qeyd edib. Yaxın vaxtlarda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması gözlənilirmi?***

-Azərbaycanın sülh müqaviləsi ilə bağlı şərti bəllidir. Belə ki, Ermənistanda konstitusiya dəyişikliyinin olmasıdır. Referendumu 2027-ci ilə çəkiblər. Azərbaycan tərəfi təklif edir ki, əsas prinsiplərlə bağlı sənəd imzalansın və daha sonra sülh müqaviləsi. Onlar isə yarımçıq addım təklif edirlər. Azərbaycan buna getməyəcək. İstəyir hazırkı layihədə 3 yox, lap 1 maddə olsun ki, razılaşdırılmayıb, bu, müqavilənin imzalanmasına imkan verməyəcək. Hazırda de-fakto sülh şəraitində yaşayırıq. Bu şəraitin institutlaşmasına yol verməmək olmaz. Bu, sülh danışıqlarına pis təsir edəcək. Ona görə belə şəraitdə Ermənistanı vadar etmək lazımdır ki, daha tez Azərbaycanın şərtlərini qəbul edib sülh sazişini imzalamağa hazır olsun.

***Anar Kəlbiyev***

32_27 IYUI-QARA.qxd 9/12/2024 10:59 PM Page 8



# Səhiyyə Nazirliyində növbəti müəmma

## Teymur Musayev korrupsiyaya bulaşan vəzifəli şəxsləri niyə öz postlarında saxlayır?

***Qəzetimizin ötən sayında xəbər vermişdik ki, Azərbaycanda bir sıra qurumların rəhbərləri və yüksəkvəzifəli əməkdaşlarının korrupsiya cinayətlərinin üstü açılıb.***

Yerli KİV-in yazdığına görə, Səhiyyə, Elm və Təhsil Nazirlikləri və Milli Elmlər Akademiyasının tabeliyindəki mərkəzlərdə dövlət vəsaitlərinin mənimsənilməsi faktları ortaya çıxıb.Bu dövrdə cinayət məsuliyyətinə cəlb edilən 80 şirkətə rəhbərlik edən Rüfət Kərimovun ifadələri isə araşdırmanın əhatə dairəsini genişləndirib. Onun şirkətlərinə dövlət qurumlarından və onların müəssisələrindən müxtəlif təyinatlı pulların köçürülməsi Maliyyə Monitorinqi Mərkəzini şübhələndirib. Bir neçə ay davam edən istintaqla ehtimal olunandan daha böyük yeyintilər üzə çıxıb.Müəyyən edilib ki, dövlət qurumları tərəfindən şirkətlərə tikinti materiallarının alınması, su ilə təmin etmə və digər xidmətlər adı ilə 3 milyon manat pul köçürülüb. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi cinayətdə iştirak edən şəxsləri tək-tək istintaqa cəlb edib. Hər biri Cinayət Məcəlləsinin xeyli miqdarda mənimsəmə və vəzifə saxtakarlığı maddələri ilə təqsirli biliniblər.



Korrupsiyaya bulaşmış həmin rəsmilər arasında Səhiyyə Nazirliyinin bir çox yüksək vəzifə sahiblərinin adları çəkilir. Bunlar aşağıdakılardır: Mürsəlov Mürsəl Fərhad oğlu - “Sanator-Kurort Reabilitasiya Mərkəzi” Publik Hüquqi Şəxsinin baş direktoru (mərkəzin binası ölkə başçısının göstərişi ilə Səhiyyə Nazirliyi tərəfindən tikilib. Bu müəssisə Səhiyyə Nazirliyi tərəfindən yüksək keyfiyyətli avadanlıqlar və böyük praktikaya sahib olan tibbi personal ilə təmin olunub);

Bədəlov Rəşid Kamil oğlu - Səhiyyə Nazirliyinin “Professor Gindes adına respulika uşaq və yeniyetmələr üçün vərəm sanatoriyası” Publik Hüquqi Şəxsinin direktoru.

Qurbanov Rauf Yusif oğlu - Səhiyyə Nazirliyinin Respublika Uşaq Sanatoriyasının baş həkimi;

Şirinzadə Seymur Aydın oğlu- Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzinin mühasibi.

”Unikal”ın araşdırmasına görə, adları milyonlarla manatlıq korrupsiya işində keçən bu məmurların hamısı hələ də öz vəzifələrində qalırlar. Səhiyyə naziri Teymur Musayevin bu posta təyinat aldıqdan sonra şəffaf idarəetməyə dair vəd verməsinə baxmayaraq onun adları çəkilən vəzifə sahibləri barədə hər hansı cəza tədbirinə əl atmaması təəccüb doğurur.

Daha maraqlı iddia isə “Sanator-Kurort Reabilitasiya Mərkəzi” Publik Hüquqi Şəxsinin baş direktoru Mürsəl Mürsəlovun mənimsədiyi pulları geri qaytardığına dair deyilənlərdir. Əgər hətta bu deyilənlər doğrudursa belə, Mürsəlovun hələ də öz postunda qalması nə qədər etik sayıla bilər?

Yeri gəlmişkən adı çəkilən baş direktorun rəhbərlik etdiyi qurumun adı iki il öncə müəmmalı tenderlərlə gündəmə gəlmişdi. Həmin vaxt yerli KİV yazırdı ki, Sanator Kurort Reabilitasiya Mərkəzi 2021-ci ilin may ayının 3-də ”Su haqqının ödənilməsi (İçməli suyun daşınması)” lotu üzrə satınalmaya yekun vurub. Keçirilən tenderin məbləği 113.800 manat, tenderin qalibi isə ”TRENİKS QRUP” Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) elan edilib. Tender müqaviləsinin şərtlərinə görə qalib olan şirkət Mərkəzi cari ilin sonuna qədər 23.958 ton içməli su ilə təmin etməlidir. Lakin şirkətin bu tenderdən bir neçə ay öncə yaradılması, nizamnamə kapitalının cəmi 5 manat olması, maddi-texniki bazası, işçi qüvvəsi, satınalmalarda iştirak etmək üçün sahib olduğu sertifikat və lisenziyalar, eləcə də əlaqə telefonları, yaxud faktiki ünvanı haqqında məlumat verilməməsi şübhələrə yol açmışdı.

Media həmçinin Mərkəzin 2020-ci ildə həyata keçirdiyi satınalmalarla bağlı başqa ilginc məqamları da ortaya çıxarmışdı. Bildirilirdi ki, bu publik hüquqi şəxsin qalib elan edərək müqavilə bağladığı şirkətlərin hamısının ”taleyi oxşardır”. Belə ki, bu şirkətlərin bəzilərinin hüquqi ünvanı eyni, nizamnamə kapitalları 2-3 manat, vergi borcları isə xirtdəyəcən...

Yeri gəlmişkən, Səhiyyə Nazirliyinin adı məlum korrupsiya işində keçən başqa bir müəssisəsinin - Respublika Uşaq Sanatoriyasının tenderləri də mətbuatda araşdırma və şübhə predmetinə çevrilib. Bildirilib ki, Rauf Qurbanovun rəhbərlik etdiyi sanatoriya 2021-2022-ci illər ərzində ümumi məbləği 830.899 manat təşkil olan 9 lot üzrə satınalma həyata keçirib. Bu satınalmalar əsasən ”dəftərxana və təsərrüfat malları, ”Texniki suyun satınalınması” ”Mətbəə mallarının çapı” və ”abadlaşdırma xidməti” lotları üzrə aparılıb.

Lakin diqqəti çəkən məqam odur ki, qalib elan edilən təşkilatların heç birinin maddi-texniki bazası, fəaliyyət profilləri, müvafiq lisenziyaları barədə məlumat yoxdur. ”Dövlət Satınalmaları Haqqında” Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinin 6.2.1 bəndində malgöndərən-podratçı təşkilatların satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin və etibarlığının olmasının vacibliyi qeyd edilir.

”İlginc məqam Respublika Uşaq sanatoriyasının qalib elan etdiyi Məhdud Məsuliyyətli Cəmiyyətlərin böyük əksəriyyətinin hüquqi ünvanlarının Yasamal rayonunda yerləşməsi, bəzilərinin qanuni təmsilçilərinin isə sosial vəziyyətləri acınacaqlı olan müxtəlif rayon sakinləri olmasıdır. Bu təşkilatların da ikisinin qanuni təmsilçisi isə eyni ailənin üzvü - ata-oğuldurlar” deyə bildirilirdi.

Bütün bunları nəzərə aldıqda M.Mürsəlovun, R.Qurbanovun və Səhiyyə Nazirliyinin digər vəzifəli şəxslərinin Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində açılan cinayət işi çərçivəsində cinayət məsuliyyətinə cəlb edilməsi təəccüb doğurmur. Təəccüb doğuran onların hələ də vəzifələrində saxlanılmasıdır.

Digər dövlət qurumlarının istintaqa cəlb edilən vəzifəli şəxslərinin öz postlarında qalıb-qalmadığını araşdırırıq və növbəti sayımızda bu məsələyə aydınlıq gətirməyə çalışacağıq.

*Toğrul Əliyev*



# MSK Natiq Cəfərlinin müraciətiylə bağlı qərar qəbul edib

***Növbədənkənar parlament seçkilərində 33 saylı Xətai Birinci Seçki Dairəsindən qeydə alınmış namizəd Natiq Cəfərlinin müraciətinə baxılıb.***

”Unikal” xəbər verir ki, müraciət barədə Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında MSK üzvü Ramiz İbrahimov məlumat verib.

O bildirib ki, o müraciətində dairə seçki komissiyasının ləğv edilməsini və dairə üzrə seçkilərin nəticələrinin etibarsız sayılmasını istəyib: “Namizəd araşdırmaya gəlməyib. Namizəd tərəfindən təqdim edilən müraciətdə bülletenlərin seçki qutusuna atılmasını normal izləyə bilməmələri, protokolların imzalanmadan və möhür vurulmadan verilməsi, bülletenlərin sol küncünün əvvəlcədən kəsilmiş olduğu və s məsələlər göstərib. Müəyyən edilib ki, namizəd tərəfindən 40 seçki məntəqəsində pozuntu olduğu iddia edilsə də, 7 seçki məntəqəsi üzrə tərtib edilən aktlar şikayətə əlavə olunub. İddia edilən pozuntuların baş vermədiyi, müxtəlif siyasi partiyaları təmsil edən müşahidəçilərə lazımi şərait yaradıldığı müxtəlif partiyaların müşahidəçilərindən alınan izahatlarda öz əksini tapıb. Namizəd tərəfindən hazırkı şikayətə əlavə edilmiş elektron daşıyıcıda 5 seçki məntəqəsindən 10 videogörəntü təqdim edilib. 1, 24, 25 saylı seçki məntəqələrində səsvermə kabinələrindən 2 nəfərin çıxması müşahidə edilir. Araşdırma zamanı müəyyən edilib ki, onlardan biri səs verən digəri isə ona kömək edən şəxsdir və videoda da görünür ki, qutuya yalnız 1 bülleten atılıb. Aparılmış araşdırma ilə müəyyən edilir ki, dairə seçki komissiyası düzgün qərara gəlinib və müraciət təmin edilməməlidir”.

Məsələ səsverməyə çıxarılıb və DSK-nın qərarı qüvvədə saxlanılıb.

Məlumat üçün bildirək ki, sözügedən dairədə lider namizəd Zahid Orucdur.

# Ali Məhkəmədə Ömər Kərkəzlə görüş keçirilib



***Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Ömər Kərkəzin başçılıq etdiyi nümayəndə heyəti ilə Ali Məhkəmədə görüş keçirilib.***

Qonaqları salamlayan Ali Məhkəmənin sədri İnam Kərimov öncə Ömər Kərkəzi qardaş Türkiyənin Ali Məhkəməsinin sədri seçilməsi münasibəti ilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Xalqlarımızın qardaşlığı və həmrəyliyi sayəsində iki ölkə arasında bütün sahələrdə əlaqələrin yeni mərhələyə qədəm qoyduğu və daim inkişaf etdiyi vurğulanıb.

Bildirilib ki, hər iki ölkənin məhkəmə orqanları arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yeni imkanlar mövcuddur.

Görüşdə ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, həmçinin Azərbaycan Respublikası Ali Məhkəməsinin fəaliyyəti barədə geniş məlumat verilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Ömər Kərkəz iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını vurğulayaraq, əlaqələrin daha da möhkəmləndirilməsi üçün səylərin artırılmasının vacibliyini diqqətə çatdırıb.

Görüşdə hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirlər və məhkəmə-hüquq təcrübəsi ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Sonra qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olub, onun tarixini əks etdirən muzeyə baxıblar.

Görüşdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı da iştirak edib.

32_27 IYUl-QARA.qxd 9/12/2024 10:59 PM Page 9





# Türkiyə Azərbaycana yeni hərbi attaşe təyin etdi

***Türkiyə Respublikasının ölkəmizdə yeni təyin edilən hərbi attaşesi general-mayor Gaffar Gören müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim olunub.***

"Unikal" xəbər verir ki, müdafiə naziri türkiyəli qonağı salamlayaraq onu ölkəmizdə fəaliyyətə başlaması münasibəti ilə təbrik edib.

General-polkovnik Z.Həsənov iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi hərbi əməkdaşlığa da müstəsna təsirini xüsusi vurğulayıb. Azərbaycan-Türkiyə əlaqələrinin dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslandığını bildirib.

General-polkovnik Z.Həsənov türkiyəli hərbi attaşeyə Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

General-mayor G.Gören isə öz növbəsində səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, Azərbaycanda hərbi attaşe kimi fəaliyyətə başlamasından məmnunluğunu ifadə edib. Ölkələrimiz arasında hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi naminə səylərini əsirgəməyəcəyini bildirib.

Ölkəmizdə hərbi attaşelik fəaliyyətini başa vuran general-mayor Soner Oruçoğlunun da iştirak etdiyi görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın yeni perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Pensiyalar nə qədər artırılacaq? - Açıqlama

***"2024-cü ilin ilk 7 ayında Azərbaycanda nominal orta aylıq əməkhaqqı 8.3 faiz artıb. Orta aylıq əməkhaqqındakı artım faizi pensiyalardakı artımı müəyyənləşdirmək baxımından əsas meyardır".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, əmək pensiyaları hər il yanvar ayında indeksləşdirilir və bu, əvvəlki ildə orta aylıq əməkhaqqıdakı artım faizinə uyğunlaşdırılır:

"Builki orta aylıq əməkhaqqıdakı artım faizinə uyğun olaraq, 2025-ci ilin yanvarın birindən etibarən bütün növ əmək pensiyalarında artımlar olacaq. 2024-cü il üçün yekun illik göstərici gələn ilin əvvəlində elan ediləcək. Eyni zamanda, bu ilin sonuna doğru maaş məbləğlərindəki potensial dəyişikliklər də orta illik əməkhaqqı faizinə təsir göstərə bilər. Daha konkret rəqəmlər ilin sonuna doğru bəlli olacaq. Əmək pensiyaları orta aylıq əməkhaqqındakı artım faizinə, pensiya kapitalı isə inflyasiya səviyyəsinə uyğun olaraq artırılır. Bu baxımdan, gələn ildən etibarən pensiya kapitalı da indeksləşdiriləcək artırılacaq".

# "Veysəloğlu Şirkətlər Qrupu"na yeni mətbuat katibi təyin edildi

***Tanınmış jurnalist Məhəmmədəli Qəribli "Veysəloğlu Şirkətlər Qrupu"nun Mətbuat Xidmətinin rəhbəri təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı jurnalistin özü sosial şəbəkə hesabında yazıb.

Bildirib ki, bundan sonrakı fəaliyyətini "Veysəloğlu Şirkətlər Qrupu"nun (VŞQ) Mətbuat Xidmətinin rəhbəri kimi davam etdirəcək.

Qeyd edək ki, Məhəmmədəli Qəribli uzun müddət media sahəsində çalışıb. Ölkənin bir çox nüfuzlu media qurumlarında jurnalist, redaktor və baş redaktor kimi fəaliyyət göstərib.

# Gəncədəki mühüm tibb müəssisəsinin rəhbərliyinin başı böyük dərddə

## Birləşmiş Xəstəxanasının direktoru 1 milyon manatlıq yeyintidən xəbərsizdir?

***Yola salmaq üzrə olduğumuz həftə aydınlaşdı ki, Gəncə Şəhər Birləşmiş Xəstəxanasının (ŞBX) vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə cinayət işinin ibtidai istintaqı tamamlanıb. Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatında deyilirdi ki, toplanmış materiallar baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.***

Bəs məlum cinayət işində söhbət nədən gedir?

Məsələ burasındadır ki, istintaqla Vidadi Hüseynovun Məhəbbət Abdullayevlə əlbir olaraq özlərində saxladıqları faktiki işə gəlməyən 36 nəfər işçiyə aid əməkhaqqı kartına köçürülmüş pul vəsaitini nağdlaşdırıb mənimsəmələrinə, eləcə də təqaüdə çıxdıqdan sonra tutduğu vəzifəyə təyin olunan Vüsal Hüseynovla birgə qanunsuz əməllərin davam etdirilməsini təşkil edərək nasaz vəziyyətdə olan avtomobillərə normadan artıq yanacağın sərf edilməsi barədə rəsmi sənədləri saxtalaşdırmasına, sadalanan qanunsuz yollarla əldə etdiyi ümumilikdə 1,1 milyon manatdan artıq pul vəsaitinin bir hissəsini leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilən vəzifəli şəxslərin xidməti otaqlarında və digər ünvanlarda aparılmış axtarışlarla iş üzrə əhəmiyyət kəsb edən sənəd və digər sübutlar aşkar edilərək götürülüb.

Toplanmış sübutlar əsasında Vidadi Hüseynov, Vüsal Hüseynov və Məhəbbət Abdullayev Cinayət Məcəlləsinin müvafiq olaraq 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və ya israf etmə), 179.3.2, 32.3,179.3.2 (külli miqdarda ziyan vurmaqla törədilən mənimsəmə və bu cinayəti təşkil etmə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 308.2, 32.3,308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə və bu cinayəti təşkil etmə), 313 və 32.3,313-cü (vəzifə saxtakarlığı və bu cinayəti təşkil etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, barələrində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

"Unikal"ın araşdırması nəticəsində aydınlaşıb ki, Gəncə Şəhər Birləşmiş Xəstəxanasının direktoru İlkin İsmayılov Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) rəhbəri Vüqar Qurbanova yaxın kadrdır. Hətta Qurbanov ötən il adı çəkilən ŞBX-də olub. Bu səfər zamanı onun yanında Gəncənin yerli rəhbərliyi, İcbari Tibbi Sığorta Agentliyinin məsul şəxsləri də olub.

TƏBİB rəhbəri Vüqar Qurbanov Gəncə Şəhər Birləşmiş Xəstəxanası ilə tanışlığın ardından təriflərini əsirgəməyib. O bildirib ki, ŞBX-nin yeni imkanları əhalinin sağlamlığının qorunması üçün tibbi xidmətlərin təşkilini səmərəli təmin etməyə imkan yaradacaq. Ardınca da əlavə edib ki, misal üçün, yeni yaradılan Nevrologiya şöbəsinin müasir tibbi avadanlıqlarla təmin edilməsi, təcrübəli nevroloqların fəaliyyətə başlaması bu yolda atılan addımlardandır. Xəstəxanada belə imkanların yaradılmasını Gəncə sakinlərinin uzaq məsafə qət etmədən, zamanına qənaət edərək tibbi xidmət almasına gətirib çıxaracağını vurğulayan Qurbanov sadəcə görüntü ilə kifayətlənib.



Gəncə ŞBX-nın direktoru İlkin İsmayılov isə öz növbəsində sadəcə müsbət işləri sadalamqla kifayətlənib. Məsələn, bildirib ki, əhalinin tibbi xidmətlərə əlçatanlığını təmin etmək üçün xəstəxanalarda yeni şöbələr yaradılıb, həmçinin sığortanın tətbiqi ilə xəstəxanaya müraciətlərin sayında artım müşahidə olunub. Əlavə edib ki, sözügedən tibb müəssisəsinə gün ərzində ortalama 3000 vətəndaş müraciət edir, onlara göstərilən xidmət sayı isə 9000-12000 aralığında dəyişir.

Uzun sözün qısası, Vüqar Qurbanov tibb müəssisəsində yaradılmış ümumi şəraitlə tanışlıqdan xeyli məmnun qalıb.

Lakin indi məlum olur ki, TƏBİB rəhbərinin təriflərindən doymadığı tibb müəssisəsində 1,1 milyon manatlıq yeyintiyə yol verilib!

Bu qədər böyük məbləğdə mənimsəməyə Vüqar müəllimə yaxın kadrın - Gəncə ŞBX-nın direktoru İlkin İsmayılovdan xəbərsiz necə qol qoyulduğu isə haqlı suallara yol açır. Azərbaycan reallığında istər dövlət olsun, istəyir qeyri-dövlət, hər hansı qurum, yaxud müəssisədə rəhbərliyin xəbəri olmadan qara qəpiyə belə tamah salmaq ağlabatan deyil. Bəs onda adi bir ŞBX-də onun direktorundan, indiki situasiyada İlkin İsmayılovdan xəbərsiz şəkildə 1,1 milyon manatın mənimsənildiyinə inanmaq mümkündürmü?

Əgər Vüqar müəllimin sevimli kadrının həqiqətən də məlumatı olmadan göstərilən məbləğdə - külli-miqdarda pul yeyinti predmetinə çevirilibsə, deməli, İ.İsmayılov ya bacarıqlı idarəçi deyil, ya da idarəetmə qabiliyyətini itirib. Ən əsası isə TƏBİB və onun rəhbərliyi qəflət yuxusundadır, həm də elə dərin qəflət yuxusundadır ki, özlərinin tabeliyindəki tibb müəssisələrini ağuşuna alan "bezpredel"in fərqinə belə varmırlar.

Onu da deyək ki, Vüqar Qurbanov 2022-ci ilin sentyabrında TƏBİB-in icraçı direktoru təyin edilib. Bundan bir neçə ay sonra isə İlkin İsmayılov Gəncə Şəhər Birləşmiş Xəstəxanasının direktoru postuna gətirilib. Həmin vəzifəyə təyinat almazdan öncə isə İsmayılov Gəncə şəhər Abbas Səhhət adına 1 saylı Xəstəxananın Baş həkimi vəzifəsində çalışıb. Sözügedən xəstəxananın fəaliyyəti ilə bağlı gəncəlilərin çoxsaylı şikayətləri isə hər kəsə məlumdur...

***Toğrul Əliyev***

# Ziya Məmmədovun 100 milyon manatlıq korrupsiya əməliyyatı

## Həftənin sualı: Sabiq nazirin fantastik qiymətlərə aldığı monitorların gərəksiz əşya kimi sökülüb atılmasına kim cavab verəcək?

***Bakının Nəriman Nərimanov rayonu Koroğlu Rəhimov küçəsindəki avtobus dayanacağında məlumat lövhəsi yoxdur. Sözügedən lövhəyə təkcə qeyd edilən ünvanda yox, digər dayanacaqlarda da rast gəlinmir. Həmin lövhələr illər öncə keçmiş Nəqliyyat Nazirliyinin 100 milyon manata yaxın dövlət vəsaiti hesabına quraşdırdığı elektron lövhələrdən dayanacaqdan keçən marşrut avtobuslarının sadəcə nömrələrinin qeydi ilə fərqlənir. Yəni söhbət tərk edilmiş mənzildə toz basmış televizoru xatırladan elektron lövhələrdən gedir. Söhbət köhnə üslubda yazı ilə avtobus nömrələrinin qeyd olunduğu və müvafiq qurumların sərnişinlərə çox gördüyü sadə lövhələrdən gedir.***

Bu lövhələr olmadıqda vətəndaş hansı avtobusun həmin dayanacaqdan keçdiyini bilmir. Ona görə də dayanacaqda dəqiqələrlə vaxt itirir.

Nəriman Nərimanov rayonu Koroğlu Rəhimov küçəsi, 6 saylı xəstəxananın qarşısındakı dayanacaqdakı lövhədə marşrut avtobuslarının nömrələrinin qeyd olunmamasına səbəb nədir?

Məsələ ilə bağlı Bizim.Media-nın sorğusuna cavab olaraq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib ki, yaxın vaxtlarda lövhələrin mərhələli şəkildə yeni standartlar əsasında quraşdırılmasına başlanılacaq: "Yol hərəkətinin təşkilinin texniki vasitələri "Yol nişanlarına, nişanlama xətlərinə, svetoforlara dair tələblər və onlardan istifadə qaydaları" dövlət standartları yeni təsdiq edilib. Qaydalara əsasən, avtobus dayanacaq nişanları, eləcə də nişanın yerləşdiyi dayanacaq məntəqəsindən keçən müntəzəm marşrut xətləri ilə bağlı məlumat lövhəsinə dair yeni standartlar müəyyən edilib.

Yaxın vaxtlarda avtobus dayanacaq nişanlarının və sərnişinlər üçün zəruri olan məlumatların əks olunduğu lövhələrin mərhələli şəkildə yeni standartlar əsasında quraşdırılmasına başlanılacaq. Marşrut şəbəkəsi yenidən işlənir. Bu işlər yekunlaşandan sonra marşrutların nömrələri əks olunan lövhələr quraşdırılacaq, köhnələr yenilənəcək", - deyə qurum rəsmisi əlavə edib.

Xatırladaq ki, ölkə başçısının 26 oktyabr 2007-ci il tarixli Fərmanı ilə nəqliyyat sahəsində İdarəetmə sistemi formalaşdırmaq, nəqliyyat axınının effektiv idarəedilməsini təmin etmək üçün Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi (NİİM) yaradılıb. Mərkəz sabiq nəqliyyat naziri Ziya Məmmədovun dövründə 100 milyon manata yaxın vəsait hesabına ərsəyə gəlmişdi. 2011-ci ilin sonunda açılışı olan Mərkəz fəaliyyətə başladığı gündən etimadı doğrultmadı.

Belə ki, NİİM yaradıldıqdan sonra xeyli vəsait xərclənərək şəhərdəki bütün dayanacaqlar dəyişdirilib yeniləri ilə əvəzləndi, bütün dayanacaqlar elektron monitorlarla təchiz edildi. Əslində monitorlar marşrutların gediş-gəliş vaxtını, aradakı intervalı, tıxac olan əraziləri, havanın temperaturunu və sair kimi daha önəmli məlumatları operativ olaraq göstərməli idi. Lakin fəaliyyətə başladığı gündən gözləntilər elə gözlənti olaraq qaldı.

Quraşdırıldıqdan qısa müddət sonra aydınlaşdı ki, əksər monitorlar işləmir, bir çoxları sıradan çıxıb, bəziləri isə yağış suyunun təsirindən yararsız hala düşüb.Lakin bütün bunların hesabını həmin vaxt Ziya Məmmədovdan soruşan tapılmadı.

Elə sabiq nazir də istifadəsinə 100 milyon manatdan çox vəsait xərclənən və ictimaiyyətə böyük təmtəraqla açıqlanan layihənin ilk aylardanca iflasa uğramasına ağlabatan izah vermək əziyyətinə qatlaşmaq ehtiyacı duymadı. Sanki hər şey məhz bu cür də olmalı imiş...

İndi isə məlum olur ki, cəmi 12 il əvvəl fantastik məbləğdə büdcə vəsaiti hesabına quraşdırılan monitorlar lazımsız əşya kimi sökülüb atılacaq. Ən azından indiki məqamda Ziya Məmmədovdan soruşmaq istərdik: 2012-ci ildə ictimaiyyətə "tarixi hadisə" kimi təqdim etdiyiniz proyektin - nəqliyyatın intellektual idaretməsinin bu cür biabırçı sonluqla nəticələnməsinə məntiqi izahınız varmı? Ən əsası, vur-tut bir neçə ay ərzində iflasa uğrayan məlum layihəyə ən azı 100 milyon manat dəyərində büdcə vəsaitinin xərclənməsinə görə vicdanınız zərrəcə ağrıyırmı?!



Daha bir vacib məqam: sabiq nazirin vaxtilə Bakıda 100 milyona həyata keçirdiyi məlum proyektin oxşarı, məsələn, Ukrayna paytaxtı Kiyevdə cəmi-cümlətanı 30 milyon manata başa gəlmişdi. Üstəlik, hazırda savaşın getdiyi Ukrayna paytaxtında bu layihə az qala qüsursuz şəkildə işləyir.

Ziya müəllimdən soruşmaq istərdik: sizin müəyyənləşdirdiyiniz qiymətdən azı 3 dəfə ucuza başa gəldiyi halda necə olur ki, Kiyevdə nəqliyyatın intellektual idarəetməsi hətta savaş dövründə belə öz işləkliyini qoruyub saxlayır, Bakıda isə 100 milyon manata başa gələn sistem az qala ilk aylardan iflasa uğrayıb, hazırda işləkliyini tamamilə itirib və onu yenidən qurmaq ehtiyacı yaranıb?

Hörmətli sabiq nazir, gah ibadətlə məşğul olduğunuz, gah yonca əkib mal-qara bəslədiyiniz, gah şeir yazdığınız, gah da bir zamanlar ölkə büdcəsinin talanmasında yaxından iştirak edərək sonra da dolanışığın çətinliyi barədə mənasız açıqlamalar vermək əvəzinə, bu sadə, lakin mühüm suallara cavab versəniz, daha yaxşı olmazdımı?!

***Sənan Mirzə***

# Mirmahmud Mirəlioğlu partiya sədrliyindən istefa verir



***Klassik Xalq Cəbhəsi Partiyası sentyabrın 15-də mühüm qərar verəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Qaynarinfo-ya açıqlamasında sözügedən partiya sədri Mirmahmud Mirəlioğlu deyib.

Sədr bildirib ki, istəlinən seçki kampaniyasından sonra uğur və uğursuzluğa görə atılan addımlar normal cəmiyyətdə təbii qarşılanmalıdır:

"Bütün məsələlərlə bağlı məsuliyyəti birinci şəxs - sədr daşıyır. Bu A variantımızdır. Təbii ki, istefa vermək, özü də istəlinən yerdə və istəlinən zamanda mümkündür".

Sədr deyir ki, bu prosesdə ciddi bir məsələ var:

"Bizim əvəzimizdən düşünən, bizim əvəzimizdən təklifləri irəli sürən adamlar v istəklər var. Bu arzu və istəklər çox zaman reallığa uyğun olmur".

Qeyd edək ki, bundan əvvəl Azərbaycan Xalq Partiyasının sədri, sabiq baş nazir Pənah Hüseyn istefa verəcəyini deyib. Ötən gün isə REAL Partiyasının sədri İlqar Məmmədov istefasını açıqlayıb.

# Nöqsanlara görə 40-dan çox bağçanın müdiri işdən çıxarıldı



***Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi tərəfindən təhsil müəssisələrində yoxlama-nəzarət tədbirləri davam etdirilir.***

Dövlət Agentliyindən "Unikal"a verilən xəbərə görə, vətəndaş və valideyn müraciətləri əsasında bir sıra məktəbəqədər təhsil müəssisələrində aparılan yoxlama-nəzarət tədbirləri zamanı aşağıdakı nöqsanlar aşkar edilib:

-təşkilati-sənədləşmə işlərinin,

-uşaqların qidalanması prosesinin təşkilinin müəyyən məqamlarda düzgün aparılmaması;

-davamiyyətin aşağı olması;

-prosesə nəzarətin düzgün təşkil edilməməsi;

-uşaqların qeydiyyatı üçün nəzərdə tutulan portaldan kənar azyaşlıların təlim-tədrisə cəlb edilməsi;

Aşkar edilən nöqsanlar nəticəsində ölkə üzrə ümumilikdə 43 bağça müdiri işdən azad edilib.

Qeyd edək ki, tədris prosesinin keyfiyyətinin artırılması və müəssisələrin fəaliyyətində şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən nəzarət tədbirləri sistemli və ardıcıl şəkildə davam etdirilir.

# Bu il 14 milyon manatdan çox ƏDV geri qaytarılıb




***Bu ilin yanvar-avqust aylarında Azərbaycanda nağdsız qaydada daşınmaz əmlak alanlara 14,4 milyon manatdan çox əlavə dəyər vergisi (ƏDV) geri qaytarılıb.***

"Unikal" bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir.

Bundan başqa, hesabat dövründə pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 116,4 milyon manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.

# Uzunömürlülüyün sirri açıqlandı



***Sağlam uzunömürlülük şansı qanda şəkər, dəmir və xolesterinin normal səviyyədə olması, həmçinin orqanizmdə sidik turşusu və kreatinin konsentrasiyasının aşağı olması ilə artır.***

"Unikal" xəbər verir ki, bu barədə İsveçin Karolinska İnstitutunun alimləri araşdırma aparıb. Araşdırmanın nəticələri "GeroScience" jurnalında dərc olunub.

Tədqiqatçılar 1985-1996-cı illər arasında tibbi müayinədən keçən 64-99 yaş arası 44 min isveçlinin sağlamlıq və həyat tərzi xüsusiyyətlərini təhlil ediblər. Onlardan 1224 nəfəri 100 il yaşayıb. Erkən qocalma və xəstəliklərlə əlaqəli məlum biomarkerlərə diqqət yetirən tədqiqatçılar, yüzilliklərin 60 yaşında həmyaşıdlarından daha yaxşı sağlamlıq vəziyyətində olduqlarını aşkar ediblər.

Alimlər uzunömürlülük şansını müəyyən edən beş mühüm sağlamlıq göstəricisini müəyyən ediblər. Onların fikrincə, ömrü uzatmaq üçün qanda dəmir və ümumi xolesterinin səviyyəsini yaxından izləmək lazımdır. Onların azalması bədəndə patoloji proseslərin baş verdiyini siqnal edə bilər. Qlükoza səviyyənizi idarə etmək eyni dərəcədə vacibdir. Tədqiqatçılar həmçinin kreatinin səviyyəsinin 100 yaşa qədər yaşayanlarda 60 yaşında demək olar ki, həmişə normal olduğunu müəyyən ediblər. Kreatinin əzələlərdə gündəlik istehsal olunan və böyrəklər tərəfindən ifraz olunan kreatinin amin turşusunun parçalanma məhsuludur. Sidikdə onun konsentrasiyasının normadan sapması böyrəklərin işində problemlər olduğunu göstərir.

Fiziki sağlamlığın digər mühüm biomarkeri qanda sidik turşusunun konsentrasiyasıdır. Onun artıqlığı diabet, qan xərçəngi, gut və digər xəstəliklər üçün xarakterik olan iltihabi proseslərin göstəricisi kimi xidmət edir.

***Gülayə Mecid***

# Hərbi Prokurorluq və Müdafiə Nazirliyi birgə tədbirlər keçirib

***Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçuları N saylı hərbi hissənin şəxsi heyətinin hüquqi maarifləndirilməsi istiqamətində birgə tədbir keçirib.***

Hərbi Prokurorluğun mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçiləri, baş ədliyyə müşaviri Firad Əliyev, ədliyyə müşaviri İsmayıl Əliyev, Tərtər hərbi prokuroru, ədliyyə polkovniki Emin Vəliyev, eləcə də digər şəxslər hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar ediblər. Ardınca şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.

# Bu il qış daha soyuq keçəcək - Xəbərdarlıq

***Ümumdünya Meteorologiya Təşkilatı planeti soyudan "La Nina" hava hadisəsinin bu ilin sonuna doğru görünmə ehtimalının olduğunu bildirib və qışın soyuq keçəcəyi barədə xəbərdarlıq edib.***

"Unikal" xəbər verir ki, Ümumdünya Meteorologiya Təşkilatı (WMO) uzunmüddətli hava proqnozları ilə bağlı yenilənmiş hesabatını dərc edib.

Hesabatda 2024-cü ilin oktyabrından 2025-ci ilin fevralına qədər baş verəcək "La Nina" hava hadisəsi ehtimalının 60 faiz olduğu bildirilib.

Bildirilib ki, "La Nina" hava fenomeni Sakit Okeanın mərkəzi və şərqi ekvatorial hissəsində okean səthinin temperaturunun xeyli azalmasına, həmçinin külək, təzyiq və yağıntı kimi tropik atmosfer sirkulyasiyasında dəyişikliklərə səbəb olur.

Bildirilmişdir ki, "La Nina", xüsusilə tropik bölgələrdə ümumiyyətlə "El Nino"nun əks iqlim təsirlərinə səbəb olur.

Hesabatda qeyd olunub ki, iqlim dəyişikliyi və ekstremal hava hadisələri ilə mübarizə üzrə "Hamı üçün erkən xəbərdarlıq" təşəbbüsü Ümumdünya Mühafizə Təşkilatının əsas prioriteti olaraq qalır.

***Gülayə Mecid***

# Talış kəndinin sakinləri səyyar tibbi müayinədən keçdilər

***Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun həkim heyəti Ağdərə rayonu Talış kəndində əhali üçün səyyar müayinələr təşkil edib.***



Bu barədə "Unikal"a nazirlikdən məlumat verilib. Aksiya çərçivəsində Tibbi Bərpa İnstitutunun artroloq, nevroloq, fizioterapevt-reabilitoloq və tibb bacısından ibarət heyət əhaliyə tibbi baxış keçirib. Eyni zamanda, nevroloqlar tərəfindən EMQ (Elektromioqrafiya) və EEQ (Elektroensefaloqrafiya) müayinələri aparılıb.

Bundan əlavə, müayinələr zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub.

Orta yaşlı əhalidə onurğa, sinir, dayaq-hərəkət, həmçinin ümumi serebrovaskulyar xəstəliklərin aşkar edilməsi, 16-65 yaş əhali arasında skolioz və digər vertebrogen problemlərin diaqnostika və bərpası üzrə müayinələr aparılıb.

İnstitutun fizioterapevt və reabilitoloqlar tərəfindən medikamentoz terapiya ilə yanaşı, həm təbii, həm də süni fiziki faktorları fərdi olaraq təyin etməklə, sağlamlığın erkən əldə olunmasına köməklik edən profilaktik tövsiyələr verilib.

Aksiya zamanı 70-dən artıq vətəndaş müayinələrdən keçib.

Qeyd edək ki, Səhiyyə Nazirliyi tərəfindən işğaldan azad olunan digər ərazilərdə də davamlı olaraq maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsi nəzərdə tutulub.

# "Uşaqlar evdədir, göstərə bilmərəm" - Namus üstündə arvadını öldürən şəxsin məhkəməsi

***Bakının Ramana qəsəbəsində həyat yoldaşını boğaraq öldürən Nurəddin Məmmədovun məhkəmə prosesinin ilkin baxış iclası keçirilib.***



"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahirə Kərimovanın sədrliyi ilə Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə təqsirləndirilən şəxs Məmmədov Nurəddin Mehvalı oğlunun məhkəmə prosesində dövlət ittihamçısı Fuad Musayev ittiham aktını elan edib. Sonra təqsirləndirilən şəxs Nurəddin Məmmədov sərbəst ifadə verib: "Özümü təqsirli bilirəm. Ayşəni başqa kişi ilə telefonda görüntülü danışdığını tutdum. Əlindən telefonu alıb yığdım həmin adamı. O şəxs mənə dedi ki, sənin həyat yoldaşın məni şantaj edir. Sonra Ayşəni döydüm və anasına zəng edib vəziyyəti dedim. Bundan sonra anası qızı ilə danışdı və vəziyyət bir müddət düzəldi. Bir gün evə gəldim gördüm Ayşən kimləsə telefonla danışır. Belə bir söz eşitdim ki, deyir uşaqlar evdədir göstərə bilmərəm. İçəri girdim gördüm yarıçılpaq vəziyyətdədir. Bundan sonra mətbəxə çəkib onu boğdum".

İttiham aktında qeyd olunub ki, Nurəddin Məmmədov bu ilin aprelin 28-də yaşadığı Ramana qəsəbəsi ərazisindəki evində olarkən arvadı Ayşə Məmmədovanın naməlum şəxslə "Whatsapp"la görüntülü danışdığını görüb. O arvadının əvvəllər də bir neçə dəfə başqa şəxslərlə əlaqəsi olduğunu aşkar etdiyindən ona xəyanət etdiyini güman edərək hiddətlənib.

Nurəddin telefonu arvadının əlindən alıb onun başına vuraraq sinəsindən itələyib, daha sonra mətbəx bıçağını götürüb.

O, bıçağın dəstəyi ilə Ayşənin təpə nahiyyəsindən bir dəfə vuraraq onun sağlamlığına yüngül zərər vurub.

Nurəddin bu il mayın 5-də evə gəlib arvadı Ayşənin yataq otağında "Whatsapp"la İlqar adlı şəxslə aralarında intim münasibət olması barədə söhbət apardıqlarını və yazışmaları gördükdən sonra, Ayşənin ona xəyanət etməsindən əmin olub.

Nurəddin arvadı ilə mübahisə edə-edə mətbəx otağına daxil olduqdan sonra qəflətən hər iki əli ilə boğazından tutub yerə yıxaraq boğaraq öldürüb. Nurəddin Məmmədova qarşı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) və 128-ci (qəsdən sağlamlığa yüngül zərərvurma) maddələri ilə ittiham irəli sürülüb.

***Seymur Əli***

# Azərbaycana 3 milyard dollar xarici investisiya yatırılıb

***2024-cü ilin ilk yarısında Azərbaycanın neft-qaz və qeyri-neft-qaz sektoruna ümumilikdə 3 milyard ABŞ dolları həcmində birbaşa xarici investisiya yatırılıb.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Mərkəzi Bankının Statistika Departamentinin direktoru Samir Nəsirov brifinqdə deyib.

O qeyd edib ki, kapital repatriasiyası isə 3,4 mlrd. dollar təşkil edib: "Azərbaycandan xaricə yatırılan birbaşa xarici investisiyalar isə cəmi 998 milyon ABŞ dolları (2023-cü ilin eyni dövründə 0,6 mlrd. dollar) olub".

## 5.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# “İstisu” zavodunun bərpası Kəlbəcərin sosial-iqtisadi inkişafına müsbət təsir edəcək




***İşğaldan azad olunmuş ərazilərimiz iqtisadi baxımdan dirçəlməyə davam edir. Azad edilmiş ərazilərimizdə biznes üçün əlverişli mexanizmlərin yaradılması, məşğulluğu artıran sahibkarlıq fəaliyyətinin təşviq edilməsi istiqamətində ciddi işlər həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, “ağıllı şəhər”, “ağıllı kənd” layihələrinin, “yaşıl texnologiya”ların tətbiqi, beynəlxalq hava limanlarının istifadəyə verilməsi, nəqliyyat-loqistika imkanlarının artırılması və digər göstəricilər regionun inkişafında, eləcə də biznes cəlbediciliyinin artırılmasında mühüm rol oynayır.***

Artıq Qarabağın gözü olan Kəlbəcər də iqtisadi baxımdan dirçəlir. Sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda “İstisu” mineral su zavodunun açılışında iştirak ediblər. Prezident İlham Əliyev zavodu işə salıb. “İstisu” mineral zavodunun 30 ildən sonra yenidən işə salınması regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq. İqtisadçı Natiq Cəfərli deyir ki, “İstisu”yun yenidən satışa çıxardılması əlamətdar hadisədir. O, bu zavodun yenidən qurulmasının Kəlbəcərin sosial-iqtisadi inkişafına müsbət təsir edəcəyini söyləyib.

“Təbii ki,”İstusu”yun yenidən satışa çıxardılması sevindiricidir. Regionların sosial-iqtisadi inkişafı baxımdan belə müəssisələrin işə salınması müsbət addımdır. Yəqin ki, gələcəkdə bu mineral su dünya bazarına da çıxardılacaq. Hazırda dünyada elə mineral sular var ki, bir litrinin qiyməti neftin bir litrinin qiymətindən bahadır. Ona görə də, “İstisu”yun dünyaya tanıdılması işlərinə başlanılmaldır. Çünki, dünya bazarında çoxlu sayda mineral sular satılır. Güclü marketinq siyasəti qurmaqla “İstisu”yun sovet dövründəki şöhrətini geri qaytarmaq olar “,-deyə Natiq Cəfərli bildirib.

Qeyd edək ki, Kəlbəcərin müstəsna keyfiyyəti və sağlamlığa faydaları ilə tanınan termal su yatağından çıxan eyniadlı suyunu 30 illik müddətdən sonra yenidən istehlakçılara təqdim edir. 1976-cı ildən etibarən Kəlbəcər rayonunda “İstisu” mineral suyunun istehsalına başlanılıb. Bununla da nadir və faydalı mineral tərkibə malik “İstisu” təbii mineral suyu geniş coğrafiyada şöhrət tapıb. Mənbəyini Azərbaycanın Kəlbəcər rayonunun mənzərəli dağlıq bölgəsində, dəniz səviyyəsindən 1600 metrdən çox yüksəklikdə yerləşən termal su yataqlarından götürən və təbii halda 60▪C-dən yuxarı temperaturda çıxan “İstisu” mineral suyu regionun minerallarla zəngin nadir suyu kimi xarakterizə olunur. Lakin, torpaqlarımızın Ermənistan tərəfindən işğalı ilə əlaqədar 30 il ərzində “İstisu” təbii mineral suyunun istehsalı dayanıb.

Təməli 2022-ci il iyunun 26-da Prezident İlham Əliyev tərəfindən qoyulan “İstisu” mineral su zavodunda işlər 2024-cü ildə tam başa çatdırılıb. Dövlətimizin başçısı və birinci xanım zavodda istehsal prosesi ilə tanış olublar. Bildirilib ki, “İstisu” mineral su zavodu müasir avtomatlaşdırılmış sudoldurma xətləri və robotlaşdırılmış anbar idarəetmə sistemləri ilə təchiz edilib. İstehsal xətləri Almaniyanın ”Krones” şirkəti tərəfindən təchiz edilib və quraşdırılıb. Ən son texnologiyaların tətbiqi nəticəsində zavodda yüksək keyfiyyətli mineral su istehsal edilməklə yanaşı, suyun təbii xüsusiyyətlərini qoruyub saxlamaq da mümkün olub. “İstisu” zavodunun illik istehsal gücü 100 milyon şüşə butulkadan artıqdır. Zavodda istehsal olunan su həm keyfiyyəti, həm də müasir standartlara cavab verməsi ilə seçilir. Beynəlxalq təsnifat meyarlarına görə, Kəlbəcər rayonunda yerləşən təbii mineral su “İstisu” - natrium bikarbonat və sulfatla zəngin mineral su kimi təsnif edilir. Tərkibində olan kalsium, maqnezium, bikarbonat, sulfat və digər faydalı elementlər orqanizmə müsbət təsir göstərir. “İstisu” təbii mineral su, eyni zamanda, yerli və beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verir. Belə ki, mineral su AZS 216-2006, İSO 9001:2015 və İSO 22000:2018 standartlarına uyğun olaraq sertifikatlaşdırılıb. İkinövbəli iş rejimində fəaliyyət göstərəcək müəssisədə təxminən 100 nəfər işlə təmin ediləcək. İşçilərin əksəriyyəti Kəlbəcər və Laçın rayonlarının sakinləridir. Qeyd edək ki, “İstisu” mineral su zavodu ətraf mühitin qorunmasına da töhfə verir. Mineral su istehsalında əsas səylər uzunmüddətli uğur və rifahın əsasını təşkil edən resurslardan davamlı istifadəyə, ekoloji cəhətdən təmiz istehsal prosesinə və təbiətin mühafizəsinə yönəlib. Bu gün zavodun əsas məqsədi ətraf mühitə zərər vermədən yüksək keyfiyyətli məhsullar istehsal etməkdir. Bu məqsədlə zavodda tullantıların miqdarını minimuma endirməyə, həmçinin elektrik enerjisi resurslarından səmərəli istifadə etməyə imkan verən müasir texnologiyalar tətbiq olunur.

Məlumat üçün onu da bildirək ki, “İstisu” mineral bulaq suyu hipertermal, karbon qazlı, hidrokarbonatlı-xloridli-sulfatlı-natriumludur. Qaraciyər, öd kisəsi, qastrit, mədə-bağırsaq, sinir sistemi və digər xəstəliklərin müalicəsində müsbət nəticə göstərir. Elə ona görə də 1928-ci ildən “İstisu” artıq sanatoriya kimi istifadəyə başlayıb. İstisu bulağından çıxan suyun tərkibində orqanizm üçün çox faydalı olan elektrolitlər və minerallar sayılan litium, sink, maqnezium var. Bu suyun müalicəvi əhəmiyyətini artıran onun temperaturunun 58 dərəcəyə qədər və hər litrində 7 qrama qədər digər lazımlı minerallar və elektrolitlərlə zəngin olmasıdır.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



# Peşə məktəblərinə boş qalan yerlər üçün qəbula start verilir

***Sabahdan etibarən 2024/2025-ci tədris ili üzrə peşə təhsil müəssisələrinə boş qalan plan yerləri üçün tələbə qəbulunun III-sonuncu mərhələsinə start verilir.***

Peşə Təhsili üzrə Dövlət Agentliyindən ”Unikal”a verilən məlumata görə, bu mərhələdə ilk iki mərhələdə uğursuz nəticə göstərən və ya ümumiyyətlə daha öncə müraciət etməyən şəxslər müraciət edə bilərlər. Daha öncə hər hansı peşə təhsil müəssisəsinə qəbul olan və sənədlərini təsdiq edən şəxslər bu mərhələdə ixtisas dəyişilməsi məqsədilə müraciət edə bilməzlər.

12 sentyabr tarixindən etibarən müraciətçilər elektron qaydada portal.edu.az saytına daxil olmaqla açıq olan vakant yerlərə müraciətlərini göndərə biləcəklər. Boş qalan yerlərə sənəd qəbulu 13 sentyabr saat 18:00-dək davam edəcək.

Portal.edu.az saytı vasitəsilə müraciət aşağıdakı ardıcıllıqla həyata keçirilməlidir:

Şəxsi kabinetinə daxil olunur.

“Peşə təhsili müəssisələrinə elektron tələbə qəbulu” xidmətinə keçid edilir.

“Müraciət et” bölməsinə daxil olunur.

Şəxsi məlumatlar daxil edilir.

Əvvəlki təhsil məlumatları daxil edilir

Ekranda görünən vakant yerlərdən biri seçilib müraciət edilir.

Təsdiq aldığı təqdirdə, sənədlər peşə təhsil müəssisəsinə təqdim edilməlidir.

Hər bir vakant yerə ilk müraciət edən şəxs şəxsi kabinetinə müsabiqədən keçməsi ilə bağlı bildiriş alacaq və həmin şəxs bildiriş aldıqdan sonra 14 sentyabr tarixinədək sənədlərini qəbul olduğu təhsil müəssisəsinə təqdim etməlidir.

# “Qırmızı Körpü” gömrük postunda 400 yük avtomobili gözləyir

***Azərbaycan-Gürcüstan sərhədində yerləşən “Qırmızı Körpü” gömrük postunda 400 avtomobil gözləyir.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi məlumat yayıb.

Bildirilib ki, “Xanoba” gömrük postunda 0, “Samur” gömrük postunda 23, “Mazımqara” gömrük postunda 6, “Biləsuvar” gömrük postunda 13, “Astara” gömrük postunda isə 16 yük maşını var.

32_27 IYUl-QARA.qxd 9/12/2024 11:01 PM Page 13



# Horadiz kəndinin 80 faizi minalardan təmizlənib



***İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə əməliyyatları sürətlə davam etdirilir.***

"Unikal" xəbər verir ki, bunu ANAMA-nın əməliyyat rəhbəri Habil Babayev jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, minatəmizləmə əməliyyatları 3 üsulla aparılır, mexaniki vasitələrlə, itlərin dəstəyi ilə və əllə.

"Füzuli rayonun Horadiz kəndində də minatəmizləmə fəaliyyəti davam etdirilir. Artıq bu kəndin 80 faizi minalardan partlamamış hərbi sursatlardan təmizlənib.

Ümumilikdə işğaldan azad edilmiş ərazilər minalarla hədindən artıq çirkəndirildiyindən minatəmizləmə fəaliyyəti zamanı ANAMA əməkdaşları qarışıq tipli mina sahələri ilə də, üzləşirlər. Bu sahələrin mina xəritələri mövcud olmadığından qurğuların quraşdırılma sıxlığı və ardıcıllığı bilinmir. Əsas təhlükə isə ən çox taxta və plastik gövdəli minaların illər keçdikcə hava şəraitinin təsiri altında deformasiyaya uğraması və partlayıcı qurğuların kənar təsir olmadan işə salınmasıdır".

# Qarabağ Universitetində bütün ixtisaslar üzrə dərs cədvəlləri hazırlanıb

***2024/2025-ci tədris ili üzrə Qarabağ Universitetində bütün ixtisaslar üzrə dərs cədvəlləri hazırlanıb, professor-müəllim heyəti tam formalaşıb.***

"Unikal" xəbər verir ki, universitetdə dərslər 23 sentyabr tarixində başlayacaq.

Bildirmək istərdik ki, ilk tədris ilinə hazırlıqla bağlı işlər yekunlaşıb, universitetin infrastrukturu tam hazırlanıb, professor-müəllim heyəti tam formalaşıb və bütün ixtisaslar üzrə dərs cədvəlləri hazırlanıb.

Tələbə əsaslı müasir modeldə universitet quruculuğunun tərkib hissəsi olaraq, Qarabağ Universitetində orientasiya (tanışlıq) günləri keçiriləcəkdir. Həmin günlərdə tələbələr universitet kampusu, əməkdaşlarla və Xankəndi şəhəri ilə tanış olacaq, bütün zəruri məlumatları əldə edəcək və onları maraqlandıran bütün suallara cavab alacaqlar.

Universitetə gəliş tarixləri barədə dəqiq məlumat tələbələrə müvafiq "WhatsApp" qrupları üzərindən təqdim ediləcəkdir.

# Sentyabrın 18-də ilin ikinci Ay tutulması baş verəcək

***2024-cü ilin 2-ci Ay tutulması sentyabrın 18-də baş verəcək. Bu, qismən Ay tutulmasıdır.***

Bakı Dövlət Universitetinin (BDU) Fizika fakültəsinin Astrofizika kafedrasından verilən məlumata görə, qismən Ay tutulması Bakı vaxtı ilə saat saat 04:41:02-də başlayıb, saat 08:47:18-də sona çatacaq.

Tutulmanın maksimumu sentyabrın 18-i saat 06:44:10-da baş verəcək. Saat 06:12:48-də qismən tutulma başlayacaq və saat 07:15:35-də sona çatacaq. Saat 04:41:02-da yarımkölgəli tutulma başlayacaq və saat 08:47:18-də sona çatacaq.

2024-cü ilin 2-ci qismən Ay tutulmasını Şimali və Cənubi Amerika, Antarktida, Afrika, Avropa, Qərbi Asiya və Rusiyanın cənub-qərbi daxil olmaqla, Ayın üfüqün üstündə olduğu istənilən yerdən müşahidə etmək mümkün olacaq.

Azərbaycan ərazisində səhər saatlarında saat 04:41-dən 06:19-a kimi yarımkölgəli Ay tutulması müşahidə ediləcək.

# 35 kiloqramdan çox olan narkotik vasitə götürülüb

***Ötən gün ümumi çəkisi 35 kiloqramdan çox olan narkotik vasitə götürülüb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə sentyabrın 11-də ümumi çəkisi 35,2 kiloqrama yaxın narkotik vasitə, həmçinin kultivasiya yolu ilə yetişdirilən 20 ədəd çətənə kolu aşkar olunaraq götürülüb.

# Uşaqların 1-ci sinfə qəbulu başa çatır

***2024-2025-ci tədris ili üçün ümumi təhsil müəssisələrinin 1-ci siniflərinə şagird qəbulunun elektron sistem vasitəsilə həyata keçirilməsi yekunlaşır.***

"Unikal" xəbər verir ki, ümumi təhsil müəssisələrinin 1-ci sinfinə uşaqların qəbulu www.mektebeqebul.edu.az elektron sistemi vasitəsilə ərizələrin onlayn qeydiyyatı yolu ilə həyata keçirilir. Uşaqların 1-ci sinfə elektron qəbulu ölkənin bütün şəhər və rayonlarının ümumi təhsil müəssisələrini əhatə edir. Uşaqların elektron sistemdə qeydiyyat prosesi 1 may 2024-cü il tarixindən başlayıb.



Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən verilən məlumata görə, uşaqların 1-ci sinfə qeydiyyat prosesinin son günü 13 sentyabr 2024-cü il, saat 18:00-dır.

Agentlikdən bildirilib ki, 2024-2025-ci tədris ili üzrə I-ci siniflərə 130 763 nəfər, məktəbəhazırlıq qruplarına isə 84 367 nəfər uşağın qəbulu gözlənilir.

Yeni tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin 1-ci sinfində 46 098 şagirdin təhsil alacağı proqnozlaşdırılır.

Agentlik bəyan edib ki, övladlarının 2024-2025-ci tədris ili üzrə 1-ci sinfə, eləcə də məktəbəhazırlıq qruplarına elektron qəbulu prosesini həyata keçirmək istəyən valideynlər tələsməli və mektebeqebul.edu.az saytı vasitəsilə şəxsi kabinet yaradaraq məktəb və müəllim seçimi etməlidirlər. Onların 1 gün vaxtı qalıb.

# Dövlət Komitəsi Şuşa şəhərinə növbəti infotur təşkil edib

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə Şuşa şəhərinə infotur təşkil edib.***

"Unikal" xəbər verir ki, infoturda məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri ilə bağlı Dövlət Komitəsinin tərəfdaşı olan şirkətlərin nümayəndələri iştirak ediblər. Onlara Prezident İlham Əliyevin tapşırığı ilə rayonda aparılan bərpa-quruculuq işləri, Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutlan tədbirlərin icrası barədə məlumat verilib. İnfotur iştirakçıları Şuşa şəhərində yeni salınan yaşayış məhəlləsində Böyük Qayıdış prosesi çərçivəsində doğma yurda qayıdan məcburi keçmiş məcburi köçkün ailələri ilə görüşüb, onların fikir və rəylərini öyrəniblər, foto-video çəkilişlər aparıblar.

Bildirilib ki, indiyədək Şuşa şəhərində 204 ailə (763 nəfər) fərdi yaşayış evi ilə təmin edilib.

Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planı çərçivəsində işğaldan azad edilmiş ərazilərə infoturlar davam etdiriləcəkdir.

Qeyd edək ki, infotur işğaldan azad edilmiş ərazilərə




Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılması tədbirləri çərçivəsində həyata keçirilib.

# Yol polisindən Formula-1-lə bağlı sürücülərə müraciət

***Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi "2024 Formula-1 Azərbaycan Qran Prisi" ilə əlaqədar sürücülərə müraciət edib.***

"Unikal" həmin müraciəti təqdim edir: "Bu gün başlayacaq "2024 Formula-1 Azərbaycan Qran Prisi" ilə əlaqədar bəzi küçə və prospektlərdə hərəkətin məhdudlaşdırıldığını nəzərə alaraq xüsusilə paytaxtın cənub qapısında yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və nəqliyyat sıxlığının qarşısının alınması məqsədilə sürücülərdən xahiş olunur ki, cənubdan mərkəzə doğru,




yeni "Azneft" və "Neftçilər" dairəsinə alternativ kimi Bakı-Salyan yolunun 14-cü kilometrliyindən Lökbatan dairəsi istiqamətində üçüncü kənar dairəvi yolla "20 Yanvar" və ya Yeni Yasamal ərazisindən keçməklə hərəkət etsinlər.

Eyni zamanda 20-ci sahə, Bayıl qəsəbəsində yaşayanlar isə qəsəbənin daxili yolları ilə Qurban Abbasov küçəsindən keçməklə Teymur Elçin, Mehdi Hüseyn və Lermontov küçələri ilə mərkəzə doğru hərəkət etmələri tövsiyə olunur.

Bununla yanaşı yol hərəkəti iştirakçılarından yarışın keçirildiyi müddət ərzində fərdi minik avtomobillərindən mümkün qədər az istifadə etmələri, şəhərin mərkəzi hissəsinə yalnız ictimai nəqliyyat vasitələri ilə hərəkət etmələri xahiş olunur".

# Şabran sakininin 10 min manatı ələ keçirilib

***Şabran rayon sakininin aldadılaraq 10 min manatının alınması barədə polisə məlumat daxil olub.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib

Bildirilib ki, polis əməkdaşlarının keçirdikləri tədbirlərlə dələduzluq əməlini törətməkdə şübhəli bilinən 30 yaşlı M.Şahmuradlı saxlanılıb: "Onun xuliqanlığa görə axtarışda olması da müəyyən olunub. Araşdırma aparılır".



32_27 IYUI-QARA.qxd 9/12/2024 11:01 PM Page 14



# Vətən onu unutmaz




***Vətən torpaqlarının düşmən əsarətində olması uşaqlıqdan Bayram İlqar oğlu Babaşovu rahat buraxmayıb. Odur ki, 1993-cü ildə Cəlilabad rayonu, Günəşli kəndində dünyaya göz açan Vətən sevdalısı özünü hərbi sənətinə bağlamaq arzusuna düşüb. 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Və bununla taleyinə yazılmış qəhrəmanlıq, mərdlik öz ilk cığırlarını açıb.***

Təhsil illərində Vətən, torpaq sevgisi Bayrama hərbin sirlərinə daha mükəmməl yiyələnməsi üçün mənəvi stimul verib. Doğma Azərbaycanın hər qarışını göz-bəbəyi kimi qorumaq, döyüş meydanında düşməndən qisas almaq onun əsas amalı olub. Məktəbi yüksək səviyyədə bitirib, elə həmin ildən də 3-cü ordu korpusunun xüsusi təyinatlı snayper bölümündə tağım komandiri vəzifəsinə başlayıb. Vətəninə bağlı, köksündə əsl qəhrəman ürəyi döyünən Bayram Babaşovun istər biliyi və səriştəsi, istəsə də xarakterindəki müsbət keyfiyyətlər, hərbiçiyə məxsus xüsusiyyətlər ilk gündən diqqəti çəkib. Müqəddəs Qarabağın işğalına qarşı barışmaz mövqeyini ortaya qoymaqla özündən yuxarı komandirlərin tapşırıqlarını lazımi qaydada, vaxtında yerinə yetirib, qatıldığı xüsusi əməliyyatlarda yalnız uğurlar qazanıb. Qardaş Türkiyədə hərbi təlimlərdə iştirak edərək ağır sınaqlardan belə öz ağılı, qabiliyyəti, bacarığı hesabına üzüağ çıxıb. Bütün bunlarla bərabər Xüsusi hava desantı paraşüt kurslarını bitirən Bayram 2019-cu ildə baş leytenant rütbəsini alıb və 3-cü ordu korpusunun əlahiddə əməliyyat taborunun birinci əməliyyat bölüyünün komandiri vəzifəsinə təyin olunub. Peşəkar komandir, cəsur döyüşçü kimi tabeliyində olan şəxsi heyətə daim diqqət və qayğı ilə yanaşıb, onların döyüş bacarıqlarına xüsusi önəm verib. Bu səbəbdən də nizam-intizamlı və fiziki dözümlülüyü hər zaman yüksək səviyyədə olan bir bölmə yetişdirib. Həmçinin rəşadət, cəsurluq qanında- illiyində olan komandir Bayram əsgərlərdə torpağa, Vətənə məhəbbət hissi aşılayıb ki, məqamı gələndə işğalçı erməni dığalardan layiqincə qisas alınsın...

44 günlük haqq savaşımız başlananda baş leytenant Bayram Babaşov "Qələbə bizimlədir. Çünki halal torpağımız uğrunda vuruşuruq"- deyib odun-alovun içinə atılıb. Azərbaycan ordusunun müdafiə zolağının ən çətin istiqamətindən- Murovdağ yüksəklikdən dığalara qaşı hücuma başlayıb. Onların neçə-neçə texnikasını, canlı qüvvəsini məhv etməklə "Ömər" aşırımı istiqamətində yerləşən düşmən mövqelərini ələ keçirib. Daha sonra 2800 metr sərt qayalıq ərazilərdən keçərək, "Canavar qulaqları" adlanan postlarında Azərbaycanın qələbə bayrağını ucaldıb. "Elşən postu" deyilən yerdə xüsusi qəhrəmanlıq nümunəsini göstərib. Burada mühasirəyə düşmüş bir bölüyə qədər şəxsi heyətinin köməkliyinə çatmaqla onların həlak olmasının qarşısını alıb.

Vətən sevdalı zabit oktyabrın 2-də Kəlbəcər uğrunda düşmənlə qeyri-bərabər döyüşə girərək şəhadətə ucalıb. Mühasirədə olmasına baxmayaraq, ələ keçirdiyi mövqelərdən sona qədər geri çəkilməyib. O, şəhid olan əsgərlərinin, yaralıların yağı əlinə keçməməsi üçün üç saat təkbaşına döyüşüb, 30-dan çox erməni dığasının axırına çıxıb. Beləcə, torpağa axıtdığı qanla doğma Azərbaycana olan ilahi sevgisini, əsl qəhrəman olduğunu möhürləyib.

Şəhid baş leytenant Bayram Babaşovun iki qardaşı da İkinci Qarabağ müharibəsinin ilk gündən ön cəbhəyə yollanıb, hər ikisi qazi olub.

Cəlilabad camaatı öz ölümsüzlüyə qovuşan igid oğlunu həmişə ehtiramla xatırlayır. Doğma kəndində onun adına inşa olunan bulaq hər kəs üçün müqəddəs yer sayılır. Dövlət tərəfindən isə şəhid baş leytenant "Vətən uğrunda", "Cəsur döyüşçü" və digər medallara layiq görülüb.

Deyirlər ki, şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Azərbaycan xalqının tarixində qeyrət, hünər, şərəf səhifəsi olan 44 günlük haqq savaşımızda Bayram kimi Vətənin qeyrətli övladları canından keçməklə bunu sübut etdilər...

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***




## Samuxda məşğul və işsiz əhalinin sayı nə qədərdir?

***Rayonda 2024-cü ilin 6 ayı ərzində məşğul əhalinin sayı 33003 nəfər təşkil edir. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 606 nəfər və ya 1,9 faiz çoxdur. Məşğul əhalinin 31,9 faiz şəhər yerləri üzrə, 68,1 faiz isə kənd yerlərində yaşayır.***

Məşğul əhalinin 44,2 faizini kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 11,5 faizini ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində, 10,6 faizini tikinti sahəsində, 3,6 faizini sənaye sahəsində, 4,8 faizini dövlət idarəetməsi və müdafiə, sosial təminat sahəsində, 2,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahələrində 7,0 faizi təhsil, 5,4 faizini digər sahələrdə xidmətlərin göstərilməsi sahəsində və 10,5 faizini isə iqtisadiyyatın qalan sahələri üzrə məşğul olan əhali təşkil etmişdir

Rayon üzrə işsiz əhalinin sayı 1382 nəferdir. İşsiz əhalinin 44,7 faizi şəhər yerləri üzrə və 55,3 faizi isə kənd yerləri üzrə mövcud olmuşdur.

***Samux Rayon Statistika İdarəsi***

## UNEC-də yeni tədqiqat mərkəzləri yaradılıb




***UNEC-in Elmi Şurasının qərarı ilə universitetdə 2 yeni tədqiqat mərkəzi yaradılıb.***

"Unikal" xəbər verir ki, yeni yaradılmış Marketinq, İstehlakçı Davranışı və Brendinq Tədqiqat Mərkəzində marketinq strategiyalarının inkişafı və tətbiqi sahəsində müasir metodların öyrənilməsi və təkmilləşdirilməsi, istehlakçı davranışının araşdırılması, gələcək bazar tendensiyalarını və istehlakçı davranışlarını proqnozlaşdırmaq üçün statistik və analitik modellərin hazırlanması və tətbiqi, brendlərin bazar performansının ölçülməsi və qiymətləndirilməsi, brend strategiyalarının hazırlanması, brendin bazardakı mövqeyinin gücləndirilməsi və digər istiqamətlərdə tədqiqatların aparılması nəzərdə tutulub.

İqlim Dəyişiklikləri və İstixana Qazlarının İdarəedilməsi Tədqiqat Mərkəzi adlanan digər mərkəzdə isə iqlim dəyişikliyinin səbəbləri və təsirlərinin elmi şəkildə araşdırılması, bu dəyişikliklərin ekosistemə, insan sağlamlığına, iqtisadiyyat və sosial strukturlara təsiri, eləcə də istixana qazlarının emissiya səviyyələrinin ölçülməsi və qiymətləndirilməsi, qazların emissiyalarını azaltmaq üçün effektiv strategiyaların hazırlanması və innovativ texnologiyaların tətbiqi ilə qlobal iqlim mübarizəsinə töhfə vermək istiqamətində dərin elmi araşdırmalar aparılacaq.

Qeyd edək ki, yeni yaradılmış mərkəzlərlə birlikdə müxtəlif istiqamətlər üzrə UNEC-də fəaliyyət göstərən tədqiqat mərkəzlərinin sayı 46 oldu.

## Sünnət əməliyyatı icbari tibbi sığorta hesabına aparılır

***Sünnət icbari tibbi sığorta hesabına təminata alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məlumatında bildirilib.

Qeyd edilib ki, cari ilin 6 ayı ərzində icbari tibbi sığorta ilə 15 mindən çox sünnət əməliyyatı icra olunub.

Bu əməliyyatlar icbari tibbi sığorta hesabına TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrində və Səhiyyə Nazirliyinin K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunda həkim göstərişi əsasında həyata keçirilir.

## Qusar rayonunda məhsul yığımı davam edir

***Rayonda taxıl biçini kompaniyası başa çatmışdır. Belə ki, 23123 hektar biçiləcək sahələrdən 56626, 8 ton taxıl yığılmışdır. Hər hektardan orta məhsuldarlıq 24,5 sentner təşkil edir.***

Biçilmiş 15580 hektar buğda sahəsindən 39262 ton buğda, 7541 hektar arpa sahəsindən 17360 ton arpa, 2 hektar vələmir sahəsindən 4,8 ton vələmir yığılmışdır.

Məhsuldarlıq keçən ilə nisbətən hər hektardan 5,6 sentner azdır. 01 sentyabr 2024-cü il vəziyyətinə rayonun təsərrüfatlarında 1192 hektar qazılmış kartof sahəsindən 16475,5 ton kartof, 797 hektar tərəvəz sahəsindən 13354,2 ton tərəvəz yığlmışdır.

Bu göstəricilər keçən ilin eyni dövründən çoxdur.

Son zamanlar rayonda bağçılığın geniş inkişaf etməsi meyvənin bol olmasına gətirib çıxarmış, bağlardan



29505,6 ton meyvə yığılmışdır. Meyvənin əsas hissəsini alma, gilas, albalı, və fındıq məhsulu təşkil edir. Bağlardan bol məhsul gözlənilir və məhsuldarlığın keçən illərə nisbətən yüksək olacağına zəmanət verir. Məhsul yığımı davam edir.

***Qusar rayon Statistika idarəsinin aparıcı məsləhətçisi Ə.Balakişiyev***

32_27 IYUl-QARA.qxd 9/12/2024 11:01 PM Page 15



# "Qarabağsız Ermənistan heç kimə lazım deyil" - Tarasov



***”Ermənistanın bəyannaməyə (Avropa Şurasının Ukrayna ilə bağlı sentyabrın 5-də Vilnüsdə Avropa Şurasına üzv dövlətlərin nazirləri tərəfindən qəbul edilən bəyannaməsi - red.) qoşulması İrəvan üçün fəlakət olardı”.***

”Unikal” xəbər verir ki, bu barədə rusiyalı politoloq Stanislav Tarasov bildirib.

”Belə olan halda Ermənistan olmamalı olduğu çərçivədə meydana çıxdı. Avropa onu seçim qarşısında qoydu. Əgər hökumət sizin dediyiniz sənədi imzalasa, bu, Ermənistan üçün tam bir fəlakət və Rusiya ilə bütün münasibətlərin tamamilə kəsilməsi olardı. Paşinyan buna hazır deyildi, Ermənistan da buna hazır deyil”, - Tarasov qeyd edib.

Rusiyalı ekspert xatırladıb ki, Roma Əsasnaməsi Monqolustan tərəfindən imzalanıb və Rusiya prezidenti həmin ölkəyə səfər edib. Tarasovun sözlərinə görə, bu və rəsmi olaraq nizamnaməyə qoşulmuş bir sıra digər ölkələr onun həyata keçirilməsindən yayınır.

Paşinyanın Kazana gedib BRİKS sammitində iştirak etmək qərarına gəlincə, politoloqun fikrincə, bunun heç bir mənası olmayacaq: ”Ermənistan Türkiyə və Azərbaycandan fərqli olaraq orada qonaq olacaq. Unutmayın, Qarabağsız Ermənistan heç kimə lazım deyil. Ermənistanı Qarabağ vasitəsilə hələ də xilas etmək olardı, amma Qarabağ təhvil verildi”.

***Ağarza Elçinoğlu***

# Putin Rusiya ordusuna Kursku geri almağı əmr edib

***”Avqustun 6-da gözlənilməz işğal zamanı hər birində 400-ə qədər əsgər olan Ukrayna Silahlı Qüvvələrinin ona yaxın batalyonu Rusiyanın Kursk vilayətinə bitişik Rusiya-Ukrayna sərhədi boyunca müdafiəni yarıb. Cəbhənin sabitləşməsinə bir neçə həftə qalmış ukraynalılar zəif təlim keçmiş rus çağırışçılarını məğlub edərək Kursk vilayətinin yüzlərlə kvadrat kilometr ərazisini ələ keçiriblər”.***

”Unikal” xəbər verir ki, bu barədə ”Forbes” jurnalı məlumat dərc edib.

Bildirilir ki, bu əməliyyat Rusiya lideri Vladimir Putinin nüfuzuna zərbə vurub. O, öz qoşunlarına oktyabrın 1-dək Ukrayna Silahlı Qüvvələrini Kursk vilayətindən çıxarmağı əmr edib.

”Rusiyanın ukraynalıları Kursk bölgəsindən sıxışdırıb çıxarmaq üçün əks-hücumları rəsmən başlayıb”, - jurnalda dərc olunub.

***Gülayə Mecid***

# SEPAH Zəngəzur dəhlizinə görə müharibə ilə hədələdi

***İran “Zəngəzur dəhlizi”ndə qərarlıdır və təslim olmaq niyyətində deyil.***

”Unikal” xəbər verir ki, bu barədə İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) ”Telegram” kanalında məlumat dərc olunub.

”Regional güc kimi İran onilliklər ərzində öz qətiyyətini sübut edib, o cümlədən Səddam Hüseyn rejiminə qarşı müharibədə qalib gəlib. İran açıq şəkildə göstərdi ki, heç bir xarici qüvvə, istər siyasi, istərsə də hərbi təzyiq onun təsirini zəiflətmək iqtidarında deyil. İranın maraqlarından yan keçərək regional tarazlığı pozmaq cəhdi güclü müqavimətlə qarşılanacaq. Ölkə bütün siyasi və strateji məsələlərdə öz mövqelərini müdafiə etməyə davam edəcək”, - məlumatda deyilir.

***Ağarza Elçinoğlu***

# Zelenski bununla bağlı Qərbə söz verdi

***Ukrayna prezidenti Volodimir Zelenski Kiyevdə ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinken və Böyük Britaniyanın xarici işlər naziri Devid Lammi ilə görüşündə bildirib ki, Qərb silahlarının Rusiya Federasiyasının dərinliklərinə hücumları halında Ukrayna yalnız hərbi hədəflərdə maraqlı olacaq.***

”Unikal” xəbər verir ki, bu barədə ”Bloomberg” nəşri yazıb.

”Zelenski onlara Ukraynanın yalnız hərbi məqsədlərlə maraqlandığını bildirib və ölkəsinin yaxın aylar üçün planlarını müzakirə edib”, - agentlik bildirib.

Sentyabrın 11-də Zelenski Kiyevdə Blinken və Lammi ilə çox mənalı və uzun söhbət etdiyini açıqlayıb.

***Gülayə Mecid***

# Ermənistan Hindistandan 600 milyon dollarlıq silah alıb

***Ermənistan Respublikası Hindistandan əlavə 155 mm-lik ATAGS artilleriya qurğuları almaqda maraqlıdır.***



”Unikal” xəbər verir ki, bu barədə Hindistan Müdafiə Araşdırmaları və Təhlil İnstitutunun baş direktoru Sudan Çinoy bildirib.

”ATAGS çox manevr edə bilən qurğulardır. Onlar Hindistanda hazırlanır və çox uğurludur. Erməni tərəfi 6 belə qurğu əldə edib və alışdan razı qalıb”, - deyə Sudan Çinoy qeyd edib.

O, Dehlinin artıq Svati radar komplekslərini İrəvana çatdırdığını və bu əməliyyatın dəyərinin 40 milyon dollar olduğunu xatırladıb.

Hindistanın Müdafiə Tədqiqatları və Təhlilləri İnstitutunun baş direktoru əlavə edib ki, Ermənistan həmçinin təxminən 250 milyon dollar dəyərində olan Pinaka çoxlüləli raket sistemlərinə maraq göstərib.

Hindistan Müdafiə Nazirliyinin məlumatına görə, 2024-2025-ci maliyyə ilində Ermənistan tərəfindən alınan Hindistan istehsalı olan silahların ümumi həcmi 600 milyon dollara çatıb. 2021-ci ildən Ermənistan Hindistandan raketlər, artilleriya sistemləri, zenit müdafiə sistemləri və digər silahlar alır.

***Ağarza Elçinoğlu***

# "Ukrayna ikinci əl mağazasına çevrilib" - Eks-baş nazir

***”Ukrayna bu gün faktiki olaraq ikinci əl mağazasına çevrilib. Qərb köhnəlmiş hərbi və mülki məhsulları Kiyevə ötürür”.***



”Unikal” xəbər verir ki, bunu Ukraynanın keçmiş baş naziri Nikolay Azarov ”Telegram” kanalında bildirib.

Onun sözlərinə görə, hazırda Latviyanın dövlət qurumlarında kompüter avadanlıqlarının yeniləri ilə əvəzlənməsi prosesi gedir və buna görə də onlar köhnələri Ukraynaya keçirmək qərarına gəliblər.

Azarov bildirib ki, nəticədə Ukrayna 845 köhnə kompüter və ən azı 269 köhnə monitor alacaq. Ukraynanın keçmiş baş naziri qeyd edib ki, öz növbəsində britaniyalılar Kiyevə utilizasiyaya məruz qalan hərbi texnika, silah və uniforma veriblər.

”Bütün bunlara misal olaraq hərbi maşınları Kiyevə köçürən amerikalılar göstərib və onların dəyərinin 7 milyon dollar olduğunu bildiriblər: Əslində, bu maşınların balans dəyəri sıfıra bərabər olub”, - siyasətçi yazıb.

***Gülayə Mecid***

# "Netanyahu zənglərimə cavab vermir" - BMT-nin baş katibi

***Qəzza zolağında baş verənlər qətiyyən qəbuledilməzdir.***



”Unikal” xəbər verir ki, bu barədə BMT-nin baş katibi Antonio Quterreş açıqlayıb. O, ”Reuters” agentliyinə müsahibəsində bildirib ki, Qəzzada beynəlxalq humanitar hüququn çox ciddi pozuntuları var, mülki əhalinin effektiv müdafiəsi tamamilə yoxdur: ”İsrail mülki əhaliyə zərər vurmaq riskini azaltmaq üçün addımlar atdığını və Qəzzadakı fələstinlilərin ən azı üçdə birinin yaraqlı olduğunu iddia edir. İsrail HƏMAS-ı fələstinli mülki şəxslərdən canlı qalxan kimi istifadə etməkdə ittiham edir, HƏMAS isə bunu rədd edir”.

Quterreş BMT-ni uzun müddətdir anti-İsrail siyasəti yeritməkdə ittiham edən İsrailin baş naziri Benyamin Netanyahu ilə danışmadığını vurğulayıb: ”Telefon zənglərimə cavab vermədiyi üçün onunla danışmamışam, amma onunla danışmamaq üçün heç bir səbəbim yoxdur. Ona görə də o, Nyu-Yorka gəlsə və mənimlə görüş istəsə, onu görməyə çox şad olaram”.

***Ağarza Elçinoğlu***

# "Ukrayna nümayəndələri Suriyada terrorçuları toplayır" - Lavrov

***Ukrayna nümayəndələri Suriyadadır və heyət ”Cəbhət ən-Nusra” qruplaşmasından yaraqlıları xüsusi əməliyyata (Rusiya və Ukrayna arasındakı müharibə, 24.02.2022-Davam edir, -red.) cəlb edir.***

”Unikal” xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.

”Bizə məlumat verirlər ki, Ukrayna kəşfiyyatının emissarları Suriya Ərəb Respublikası ərazisindəki İdlib deeskalasiya zonasındadırlar və orada terror təşkilatlarından yaraqlılar toplayırlar”, - Xarici İşlər Nazirliyinin rəhbəri bildirib. Lavrovun sözlərinə görə, terrorçuların toplanması Kiyev tərəfindən onların “yeni planlaşdırılan çirkin əməliyyatlarında” iştirak üçün həyata keçirilir.



***Gülayə Mecid***

32_27 IYUl-QARA.qxd 9/12/2024 11:02 PM Page 16



# AFFA-nın İcraiyyə Komitəsi toplaşır - Yeni qərarlar veriləcək

***AFFA İcraiyyə Komitəsinin növbəti iclasının vaxtı bəlli olub.***

"Unikal" xəbər verir ki, bu barədə milli assosiasiyanın rəsmi saytı məlumat yayıb.

Toplantı sentyabrın 13-də AFFA-nın inzibati binasında gerçəkləşəcək.

Saat 15:00-da başlayacaq iclasın gündəliyinə bir sıra məsələlər daxildir:

1. Lisenziyalaşdırma qaydalarında nəzərdə tutulmuş dəyişikliklərin təsdiqi
2. AFFA-nın Strategiyasının yazılmasına dair görülən işlərlə bağlı məlumat
3. Texniki Direktorun aşağı yaş qrupları üzrə milli komandalarla bağlı hesabatı
4. AFFA-nın təşkil etdiyi aşağı yaş qrupları üzrə liqalarla bağlı müzakirələr




5. İntizam Komitəsinə yeni üzvlərin təsdiqi
6. AFFA tərəfindən klublara ayrılan vəsaitin meyarlar üzrə bölgüsünün müzakirəsi
7. Qadın Liqaların 2024-2025-ci illər mövsümü üçün təkliflərin müzakirəsi
8. Digər məsələlər.

# İngiltərə millisinin baş məşqçisi vəzifəsinə əsas namizədlər

***İngiltərə millisinin baş məşqçisi vəzifəsinə əsas namizədlər məlum olub.***

"Unikal" xəbər verir ki, bu barədə "The Telegraph" məlumat yayıb. Yığmaya baş məşqçilik etmək üçün namizədlərin arasında Eddi Hou, Qrem Potter və Frenk Lempard da var. İngiltərə Futbol Assosiasiyası sözügedən mütəxəssisləri diqqətdə saxlayır.



Federasiyanın prioriteti isə "Mançester Siti"nin baş məşqçisi Xosep Qvardioladır. Müvəqqəti baş məşqçi kimi ilk 2 oyununda qələbə qazanan Li Karslinin indi daimi çalışdırıcı olmaq üçün yaxşı fürsəti var.

Bildirilir ki, assosiasiya DÇ-2026-nın seçmə mərhələsi başlayanadək yeni baş məşqçi təyin edəcək.

Qeyd edək ki, İngiltərə millisinin baş məşqçisi Qaret Sautqeyt bu ilin iyul ayında vəzifəsindən istefa verib. O, bu addımı milli ilə Avro-2024-ün finalında İspaniyaya uduzduqdan sonra atıb. Sautqeyt ötən ay Texniki Müşahidəçilər Komitəsinin daimi üzvü olub.

# Futbolumuzun bir penalti vura bilməmə dərdi var - "Gərək onlara dərs keçək"

***Azərbaycan millisinin və "Neftçi"nin sabiq kapitanı Yunis Hüseynov yerli futbolçularımızın penaltimi dəqiq yerinə yetirməklə bağlı üzləşdiyi problemlərdən danışıb.***

Y.Hüseynov futbolçu karyerasında penaltiləri əksər hallarda dəqiq icra etməsi ilə tanınıb.

Bu yay avrokuboklarda "Zirə"nin heyətindəki yerli futbolçular penaltilər seriyasında qapıya dəqiq zərbə endirməkdə çətinlik çəkiblər. İsveçlə matçda Azərbaycanın əsas millisində Ramil Şeydayev penaltini qola çevirə bilməyib. İki gün əvvəl isə U-21 millimizin üzvü Nəriman Axundzadə Serbiya ilə matçda qeyri-dəqiq olub.

Y.Hüseynov QOL.a saytına müsahibəsində bunun səbəbi barədə danışarkən deyib: "Penaltini yerinə yetirmək üçün də təcrübə, özünəinam lazımdır. Özünə inamın olmasa, penaltini vura bilməzsən. Mən özüm də penaltiləri yerinə yetirən futbolçu olmuşam. Gərək penaltilərin üzərində işləyəsən. Bizimkilər bilirsiniz necədir, qapıçı küncü göstərir, bizim oyunçularımız da zərbəni həmin küncə vurur. Sırf penaltiləri niyə qola çevirə bilmədiklərini deyə bilmərəm. Amma özünə inanan futbolçu həmişə dəqiq zərbə vurur. Gərək onlara dərs keçək də. Məşq prosesində işləmək lazımdır. Penalti vurmaq asan bir şey deyil. Boş stadionda qol vurmaq asandır, azarkeşlə dolu stadionda isə çətindir. Serbiya ilə



oyunda Nərimanın boş stadionda penaltini vura bilməməsi də anlaşılmaz idi. Dolu stadionda isə cərimə meydançasına girəndə sankı qapı balacalaşır, qapıçı böyüyür. Ona görə də psixoloji baxımdan güclü olmaq lazımdır".

# "Orenburq" futbolçusunu icarəyə verməkdən imtina etdi

***"Orenburq" paytaxtın ÇSKA-nın yarımmüdafiəçisi Viktor Mendesi icarəyə verməkdən imtina edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu futbolçu ilə maaşla bağlı danışıqların nəticəsiz qaldığı üçün olub.

Qeyd edək ki, yarımmüdafiəçi klubu ilə 3 illik müqavilə imzalayıb.

***Fidan Nuriyeva***



# Məşhur futbolçu vergi fırıldaqçılığında ittiham olunur

***Fransa millisinin və "Liverpul"un sabiq hücumçusu Cibril Sisse 1 il şərti həbs cəzasına məhkum edilə bilər.***

"Qafqazinfo" xarici KİV-ə istinadən xəbər verir ki, 43 yaşlı sabiq futbolçu vergi fırıldaqçılığında və korporativ aktivlərdən sui-istifadədə ittiham olunur.

Fransa prokurorluğu məhkəmədən Sissenin 100 min avro məbləğində cərimələnməsini istəyib.

Qeyd edək ki, Sisse 2002-2011-ci illərdə Fransanın əsas millisində oynayıb. O, 2004-2006-cı illərdə "Liverpul"un formasını geyinib.

# "Turan Tovuz"un legioneri millidə 90 dəqiqə oynadı

***"Turan Tovuz"un futbolçusu Denis Marandiçi Moldova millisində növbəti oyuna çıxıb.***

QOL.az xəbər verir ki, 27 yaşlı müdafiəçi Malta üzərində 2:0 hesablı qələbəsində iştirak edib.

UEFA Millətlər Liqasının qrup mərhələsinin 1-ci turunda keçirilən matçda Marandiçi start heyətdə meydana çıxıb və 90 dəqiqə mübarizə aparıb.

# Dortmund Avropanın zirvəsində



***UEFA 2023/24 mövsümü üçün oyunlarına ən çox azarkeş gələn klubların adlarını açıqlayıb.***

QOL.az-ın "BBC"yə istinadən yaydığı xəbərə görə, qitənin ali futbol qurumunun hesabatında bildirilib ki, ötən mövsüm Avropada 16 klub bir mövsüm üçün ümumilikdə 1 milyon tamaşaçı həddini keçib.

Hər ev oyununa görə ən çox tamaşaçı qəbul edən isə Dortmundun "Borussiya" klubu olub. Onların hər ev matçını orta hesabla 81 min 305 azarkeş izləyib. Ümumilikdə isə Dortmundda hər oyuna 1 milyon 951 min 745 tamaşaçı gəlib.

İlk onluq aşağıdakı kimi olub:

1. "Borussiya" Dortmund
Signal Iduna Park stadionu - 1 milyon 951 min 745 tamaşaçı
2. "Milan"
San Siro - 1 milyon 860 min 825
3. "Mançester Yunayted"
Old Trafford - 1 milyon 834 min 291
4. "Real" Madrid
Santiago Bernabeu - 1 milyon 805 min 825
5. "İnter"
Giuseppe Meazza - 1 milyon 728 min 562
6. "Bavariya"
Allianz Arena - 1 milyon 725 min
7. "Roma"
Olimpiya stadionu - 1 milyon 689 min 173
8. "Atletiko" Madrid
"Civitas Metropolitano" - 1 milyon 642 min 17
9. "Liverpul"
"Enfild" - 1 milyon 608 min 368
10. "Vest Hem Yunayted" -
London stadionu - 1 milyon 572 min 997

# AFFA nümayəndəsi UEFA-dan təyinat aldı

***AFFA-nın Oyun Əməliyyatları şöbəsinin rəisi Emin Cəfərov UEFA tərəfindən təyinat alıb.***

"Unikal" qurumun rəsmi saytına istinadən xəbər verir ki, o, UEFA Gənclər Liqasının Çempionlar yolunun I mərhələsində keçiriləcək "Jalgiris" (Litva) - TNS (Uels) oyununun UEFA nümayəndəsi olacaq.

Qarşılaşmanı qazaxıstanlı baş hakim Rustam Omarov idarə edəcək.

Qeyd edək ki, Vilnüs şəhərində yerləşən LFF stadionunda təşkil olunacaq görüş sentyabrın 18-də baş tutacaq.